

Milli azadlıqdan şirin nemət yoxdur!

# Dekabrın 10-dan 30-dək...

## Bələdiyyə seçkilərində mühüm mərhələ



Bax səh. 2


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

07 dekabr 2024-cü il, şənbə

№ 226 (6812)

Qiyməti 60 qəpik


# Regionda barışıq və sülhün mühüm şərti...

## Qərbi azərbaycanlıların ləyaqətli və təhlükəsiz qayıdışı




Bax səh. 2

# Sülhə nə qaldı?

Bax səh. 3



## Vasitəçi olmaq üçün...

### Bayden administrasiyası tərəfsiz qala bilmədi

Bax səh. 5

## Minsk qrupu kağız üzərində niyə saxlanılır?

Bax səh. 3



## Sənaye parkı ailəsinin 8-ci üzvü

Bax səh. 4

## Həm kredit tərəfdaşı, həm də aparıcı səhmdar...

Türkiyənin İstanbul şəhərində Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) Rəhbərlər Şurasının 26-cı İllik Toplantısında bu maliyyə qurumu ilə Azərbaycan arasında mövcud əməkdaşlığın vəziyyəti yüksək dəyərləndirilib. QDTİB-in ölkəmizdə müxtəlif sektorları əhatə edən layihələrə verdiyi maliyyə dəstəyinin davamlı olduğu xatırladılıb. Bankın Rəhbərlər Şurasının üzvü, Azərbaycanın maliyyə naziri Samir Şərifov QDTİB ilə ölkəmiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi və gücləndirilməsi üçün potensialların böyük olduğunu, bankın Azərbaycanda daha çox investisiya ayıracağına əminliyini ifadə edib.

Qeyd edək ki, QDTİB beynəlxalq dövlətlərarası maliyyə kredit təşkilatıdır. Bank Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlər - Albaniya, Azərbaycan, Ermənistan, Bolqarıstan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya Federasiyası, Türkiyə, Yunanıstan və Ukrayna tərəfindən yaradılıb.

QDTİB iqtisadi inkişafı və regional əməkdaşlığı dəstəkləyir, üzv ölkələrdə dövlət və özəl sektorlarda layihələr üçün kreditlərin verilməsi, kredit xətlərinin açılması, investisiyaların...

Bax səh. 4

## “Sen Martində Fransa və Niderland müstəmləkəçiliyi - bir ada, bir xalq, bir tale”

Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Fransa və Niderlandın müstəmləkəçiliyi altında olan Sen Martin adasına həsr edilmiş beynəlxalq konfrans keçirilib. “Sen Martində Fransa və Niderland müstəmləkəçiliyi - bir ada, bir xalq, bir tale” adlı konfransda müstəmləkəçiliyə qarşı mübarizə aparan və azad olmağa çalışan Sen Martin xalqının təmsilçiləri, habelə müstəmləkəçilik əleyhinə fəaliyyət göstərən təşkilatların rəhbərləri, parlament üzvləri, hüquq müdafiəçiləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, dekolonizasiya üzrə ekspertlər və tədqiqatçılar iştirak ediblər.

Konfransın açılışında çıxış edən Sen Martin parlamentinin üzvü Franklin Meyers bildirib ki, istər Fransanın, istərsə də Niderlandın müstəmləkəçiliyindən qurtularaq müstəqil olmaq xalqlarımızın ən müstəsna hüququdur. O, məhz bu hüququn dünya miqyasında tanınması üçün Bakıda olduqlarını qeyd edib. “Hesab edirik ki, analoji konfransların təşkili əsas ideyamız olan müstəqilliyə doğru irəliləmək yolunda son...

Bax səh. 5

## Həyat sığortası: özəl yığımlara doğru

2025-ci ildən etibarən Azərbaycanda dövlət sektorunda çalışan şəxslərin həyatın yaşam sığortası dayandırılacaq. Gələn ildən həyat sığortası üzrə bazarda əsas yığım kateqoriyası özəl sektorun təmsilçilərinin üzərinə düşəcək. Xatırladaq ki, 2024-cü ilin yanvar-oktyabr aylarında Azərbaycanda 17 sığorta şirkətinin xətti ilə 1 milyard 112 milyon manat sığorta haqqı toplanılıb, onun təxminən 55 faizi həyat sığortası yığımlarıdır. Həyat sığortası növləri üzrə 610 milyon manat sığorta haqqı toplanıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 16,1 faiz çoxdur.

Həyatın yaşam sığortası müvafiq lisenziyaya malik sığorta şirkəti ilə işəgötürən arasında imzalanmış müqaviləyə əsasən nizamlanır. İstənilən müəssisə, təşkilat və idarədə çalışan şəxs bu sığorta məhsuluna qoşula bilər. Sığorta müqaviləsini bağlayan şəxs hər ay müəyyən edilmiş məbləği sığorta şirkətinin hesabına ödəyir və bununla da sabit aylıq ödənişlərə əsasən, həyatın sığortası portfeli formalaşır. Eləcə də işəgötürən təşkilat öz gəlirlərinin bir hissəsini bu sığorta fonduna yönəldir. Bu sığorta növü bir növ yığım fondu məzmunu daşıyır. Sığorta müqaviləsinə əsasən, sığorta olunan şəxsin sığorta müqaviləsində müəyyən edilmiş dövr ərzində ödədiyi sığorta məbləği tam şəkildə ona qaytarılır.

Varisə ötürülən sığorta...

Bax səh. 6

## Ruhu üzünə çıxan dünya

Dünya ədəbiyyatının qızıl fonduna düşmüş elə əsərlər var, həm uşaq, həm böyük üçündür - Defonun “Robinzon Kruzo”su, Sviftin “Qulliver”i, Andersenin “Çılpaq kral”ı, Ekzüperinin “Balaca şahzadə”si kimi. Meterlinkin “Göy quş”u da bu qəbildəndir.

Adını çəkdiyim ilk üç əsər canında nağıl şirinliyi gəzdirməklə yanaşı, sosial-siyasi mesajlar da verir. Ekzüperinin, Meterlinkin nağılları isə mistik xarakter daşıyır. Hərçənd “Göy quş”u da kasıb balalarının himni kimi qələmə verməyə cəhd göstərənlər olub, ancaq bu, fikrimcə, ədəbi-fəlsəfi baxımdan doğru yanaşma deyil.

***

Moris Meterlink uzun, barlı-bəhərli ömür yaşayıb - 1862-ci ilin yayında Belçikada imkanlı ailənin uşağı kimi doğulub, 1949-cu ilin yazında Fransada dünya şöhrətli dramaturq kimi dünyadan köçüb. Sənət karyerası uğurlu olub, əlli yaşına çatmamış - 1911-ci ildə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülüb. Yazdıqları, ələlxüsus da yaradıcılığının zirvəsi sayılan “Göy quş” nağıl-pyesi bütün mədəni ölkələrdə çap da olunub, səhnəyə də qoyulub.

Onun adı Avropa ədəbiyyatında simvolizmin aparıcı adlarından biri kimi çəkilir. Metodunun formalaşması baxımından dahi alman mistiki Novalisin ona güclü təsiri olduğu gizli deyil. Kimin kimə təkan verdiyini deyə bilmərəm, ancaq Meterlinkin fəlsəfi nağılıyla...

Bax səh. 7



## Yaxın Şərqin Suriya düyünü....

Bax səh. 6



## Qış turizmi: Soyuq qarın “qaynar” qiymətləri...

Bax səh. 6

# Regionda barışıq və sülhün mühüm şərti...

## Qərbi azərbaycanlıların ləyaqətli və təhlükəsiz qayıdışı

Qərbi Azərbaycan İcmasının (QAİ) təşkilatçılığı ilə "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilən II beynəlxalq konfransın yekun sənədi qəbul edilib. Hazırkı strateji mərhələdə zamanında indiki Ermənistanın yerləşdiyi Qərbi Azərbaycandan bir neçə dəhşətli deportasiya nəticəsində zorla çıxarılan soydaşlarımızın tarixi yurd yerlərinə qayıdışı ölkəmizdə əsas ümummilli ideyalardan biri qismində çıxış edir. Azərbaycan dövlət və cəmiyyət olaraq bu məsələni diqqət mərkəzində saxlayır. Ərazi bütövlüyümüzün və suverenliyimizin təmin olunmasından sonra növbəti hədəfimizə çatacağımıza da böyük inamımız var. Bəhs olunan konfransın uğurla baş tutması bu istiqamətdə atılan növbəti uğurlu addım oldu.

Konfransda aparılan aktual müzakirələr həm soydaşlarımızın tarixi yurd yerlərinə dönmək istəyində israrlı olduqlarını, həm də Azərbaycanın ədalət və barış mövqeyində dayandığını bütün dünyaya  nümayiş etdirdi. Yekun sənəddə konfransda aparılmış müzakirələrin xülasəsi verilir. Konfransın yekun sessiyasında sənədi Polşadan olan iştirakçı, Avrasiya Araşdırmaları Mərkəzinin aparıcı tədqiqatçısı Jakub Voytsex Koreyba oxuyub. "Aralarında parlament üzvləri, ictimai-siyasi xadimlər, vətəndaş cəmiyyəti fəalları və elm xadimləri olmaqla 51 ölkədən 200-dən artıq iştirakçı "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin olunması" mövzusunda İkinci Beynəlxalq Konfransda toplaşaraq, Ermənistandan məcburən çıxarılmış azərbaycanlıların qayıdış məsələsini və qlobal miqyasda məcburi köçkünlük problemini müzakirə etdilər", - deyə sənəddə vurğulanıb.



### Hələ də həllini tapmayan böyük ədalətsizlik

Zamanında soydaşlarımızın Qərbi Azərbaycandan zorla köçürülməsi öz miqyasına və xarakterinə görə dünyada qeydə alınan eyni məzmunlu hadisələr sırasında xüsusi qəddarlıqla törədilməsi iə diqqət çəkir. Dünya tarixində bir yüzillikdə eyni bir toplumun dörd dəfə ən ağır şərtlər altında dəhşətli deportasiyalara məruz  qalması faktına rast gəlinmir. Qərbi Azərbaycandan qovulan soydaşlarımız XX yüzillikdə məhz belə acı tale ilə üzləşiblər. Onlar 1918, 1921, 1948-1953 və 1987-1991-ci illərdə olmaqla doğma ev-eşiklərindən zorla çıxarılıblar. Ən acınacaqlı cəhətlərdən biri də ondan ibarətdir ki, Qərbi Azərbaycanda dağlıq zonada yaşamağa öyrəşmiş soydaşlarımızın yeni yaşayış ünvanları kimi bir qayda olaraq aran bölgələri seçilib ki, bu da adaptasiyanın çox ağır keçməsi ilə nəticələnib. Sonuncu deportasiyayadək indiki Ermənistan ərazisində 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edirdilər və bütövlükdə 300-dən çox şəhər və kənddə soydaşlarımız məskunlaşmışdılar. Onların hamısı cəmi 3 il ərzində yurd yerlərindən  zorla çıxarıldı. Sonuncu kəndimiz Nüvədi 1991-ci ilin avqustunda deportasiyaya məruz qaldı. Eyni zamanda, Qarabağda da xalqımıza qarşı cinayətlər törədildi. Yüz minlərə insanın taleyinə bu şəkildə qərar verilməsi humanizm dəyərlərinin tamam unudulması anlamına gəlir.  "İştirakçılar qeyd etdilər ki, köçkünlük insan hüquqlarının ən ciddi pozuntularından biridir və azərbaycanlıların Ermənistandan məcburi köçürülməsi hələ də həll olunmamış böyük bir ədalətsizlikdir", - deyə yekun sənəddə bildirilir.

### Beynəlxalq hüquqda möhkəm şəkildə təsbit olunan məsələ

Hazırda dünyada 120 milyondan çox insan məcburi köçürülmə problemi ilə qarşılaşıb. Aydın şəkildə dərk olunur ki,  beynəlxalq ictimaiyyətin birgə səyləri olmadan bu problemin effektiv həlli mümkünsüzdür. Bir sıra beynəlxalq konvensiyalar insanların qayıdış hüququnu tanıyır. Ancaq özlərini dünyaya "mədəni xalq" kimi təqdim etməyə çalışan ermənilər azərbaycanlıların bu hüquqlarını qəbul etmək istəmirlər. Qərbi Azərbaycan bizim tarixi torpağımızdır. İndiki Ermənistanın ərazisində tarix boyu azərbaycanlılar yaşayıblar. Bunu təsdiqləyən tarixi sənədlər və xəritələr var. Günümüzə qədər gəlib çatan həmin xəritələrdə onlarla yaşayış məntəqəsinin adları qeyd olunub. Toponimlərin əksəriyyəti Azərbaycan mənşəlidir. Bəs özlərini "mədəni xalq" adlandıran ermənilər tarixi niyə iqnor edirlər?  Soydaşlarımız yurd yerlərinə tanklarla, top-tüfəngə deyil, dinc şəkildə qayıtmaq istəyirlər. Rəsmi İrəvan isə bu istəyi, böyük bir toplumun dinc məqsədini beynəlxalq birliyə "Azərbaycan Ermənistana qarşı ərazi iddiaları sərgiləyir" məzmununda təqdim edir. Absurd, məntiqi olmayan qənaətdir. Dünyanı ermənisayağı aldatmaq, manipulyasiya etmək cəhdləri ortadadır. Buradan da hansı xalqın daha mədəni xalq olduğu aydın şəkildə görünür.

Yekun sənəddə qayıdış hüququnun beynəlxalq norma və prinsiplərə uyğun olduğuna xüsusi vurğu edilib. Sənədə oxuyuruq: "İştirakçılar vurğuladılar ki, qayıdış hüququ beynəlxalq hüquqda möhkəm şəkildə təsbit olunmuş və təməl insan hüququ kimi tanınır. Onlar qayıdış hüququnun əsasları arasında Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt, Pinheiro Prinsipləri və beynəlxalq adət hüququnu qeyd etdilər.

İştirakçılar Ermənistanın zorla çıxarılmış azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri dönməsinə icazə verməkdən imtina etməsindən ciddi narahatlıq ifadə etdilər. Onlar Beynəlxalq Cinayət Məhkəməsinin (ICC) prokurorunu, Ermənistanın azərbaycanlıların qayıdışına imkan verməməklə beynəlxalq hüquq və Roma Statutu çərçivəsində üzərinə götürdüyü öhdəlikləri pozmasını araşdırmağa çağırdılar".

Hazırda dünyanın ayrı-ayrı regionlarında insanlar oxşar məzmunlu problemlərdən əziyyət çəkirlər. Yekun sənəddə qeyd olunduğu kimi, konfrans iştirakçıları xatırladıblar ki, azərbaycanlılar postsovet məkanında etnik münaqişələrin ilk qurbanları olmuş və beynəlxalq ictimaiyyətin yetərsiz reaksiyası digər münaqişələrin yaranmasına gətirib çıxarmışdır. Onlar vurğulayıblar ki, Qərbi azərbaycanlıların təhlükəsiz qayıdış hüquqlarının tam bərpası dünyada münaqişələrin həlli üçün müsbət bir nümunə ola bilər.

Konfrans iştirakçıları qayıdacaq Qərbi azərbaycanlıların təhlükəsiz şəkildə qayıtması və qayıdış prosesinin hərtərəfli planlaşdırılması və resursla təmin edilməsi üçün BMT-ni və dünya dövlətlərini diplomatik səylər göstərməyə çağırıblar. İştirakçılar qayıdanların reinteqrasiyası sahəsində gözlənilən çətinlikləri qeyd ediblər və Qərbi azərbaycanlılar qayıdacaq yerlərdə infrastrukturların bərpası, onlara humanitar yardım göstərilməsi və uzunmüddətli inkişaf proqramlarının həyata keçirilməsi üçün əlaqələndirilmiş səylərin vacibliyini diqqətə çatdırıblar.



### Soydaşlarımızın mülkiyyət hüquqları bərpa olunmalıdır

Yuxarıda bəhs etdiyimiz  deportasiyalar zamanı minlərlə insan həyatını itirib, soydaşlarımıza hətta ev əşyalarını özləri ilə götürməyə belə imkan verilməyib. Qanunsuz olaraq müsadirə edilmiş əmlakların geri qaytarılması yalnız fərdi ədalətin deyil, həm də münaqişə sonrası barışıq və etimad mühitinin qurulması üçün çox mühüm amillərdən biridir. Ermənistan hakimiyyəti belə bir iradə ortaya qoymaqla regionda həqiqətən də  münaqişə, qarşıdurma səhifəsini bağlamaq istəyində olduğunu təsdiqləmiş olar. Ancaq indiyədək Ermənistandan gələn bəyanatların məzmunundan aydın şəkildə görünür ki, rəsmi İrəvan belə bir siyasi iradədən, humanist yanaşmadan çox uzaqdır. Yekun sənədində də bildirildiyi kimi, iştirakçılar qayıdış prosesində mülkiyyət hüquqlarının bərpasının vacibliyini vurğulayıblar. Onlar Ermənistan hökumətini müsadirə edilmiş və ya zorla ələ keçirilmiş əmlakların geri qaytarılması, məcburi köçkünlük zamanı dəymiş itkilərə görə kompensasiya ödənilməsi və zərərlərin əhatəli şəkildə həll olunması üçün zəruri addım atmağa çağırıblar. Tədbirdə qeyd edilib ki, kompensasiya köçkünlərin maddi və emosional itkilərini qarşılamaq üçün mühümdür, lakin kompensasiya, ata-baba torpaqlarına qayıdış hüququnun əvəzi kimi və ya onu inkar etmək üçün istifadə edilə bilməz.

Başqa bir mühüm məqam mədəni irsə vurulan ziyanla bağlıdır. Ən qəddar formalarda həyata keçirilən deportasiyalar nəticəsində yalnız insanlar faciələrlə üzləşməmişlər. Həmçinin tarixi abidələrimiz, mədəni-dini irs nümunələrimiz də erməni vandalizminə məruz qalıb. Ermənilər tarixi ərazilərimizdə azərbaycanlı izlərini itirməkdən ötrü ən ağlagəlməz vasitələrə əl atıblar. Hətta qəbristanlıqlar, məscidlər belə dağıdılıb. O cümlədən UNESCO tərəfindən ümumbəşəri mədəni dəyər kimi tanınan Azərbaycan aşıq sənətinə ciddi zərər vurulub. Xalqımızın Ermənistan ərazisində yaratdığı mədəni irs nümunələrindən yalnız Göy Məscid günümüzə qədər salamat qalıb. Lakin bu abidəyə münasibətdə də erməni xisləti ortadadır. Belə ki, Ermənistan Göy Məscidin orijinal tarixi-memarlıq üslubunu qəsdən dəyişdirərək onu başqa ad altında təqdim etməyə çalışır. Yekun sənəddə konfrans iştirakçılarının Ermənistanda  azərbaycanlıların mədəni irsinin, o cümlədən məscidlərin, qəbiristanlıqların və tarixi abidələrin sistematik şəkildə məhv edilməsindən narahatlıq ifadə etdiklərinə diqqət çəkilib. Vurğulanır ki, iştirakçılar bunu azərbaycanlı kimliyini silmək cəhdi kimi qiymətləndirərək, bu mədəni irsin vəziyyətinin qiymətləndirilməsi, qorunması və bərpası üçün UNESCO-nun və digər beynəlxalq təşkilatların cəlb olunmasına çağırıblar.

### Ermənistan birgəyaşayış üçün şərait yaratmalıdır

Tarixi ədalətin bərpası  barışıq və daimi sülh üçün zərurətdir. Konfrans iştirakçıları Ermənistanı azərbaycanlılara qarşı cinayətlərə görə məsuliyyət daşıyan şəxslərin şöhrətləndirilməsinə son qoymağa, nifaqı davam etdirən strukturları ləğv etməyə və Qərbi Azərbaycan İcması ilə konstruktiv dialoqa başlamağa çağırıblar. Onlar vurğulayıblar ki, barışıq üçün Ermənistanın tarixi ədalətsizlikləri aradan qaldırması və birgəyaşayış və inam üçün şərait yaratması vacibdir.

Yekun sənəddə konfransda Ermənistan hökumətinə regional sülhə mane olan siyasətini və konstitusiya müddəalarını aradan qaldırmağa və iqtisadi və sosial əməkdaşlıq imkanlarını qəbul etməyə çağırış edildiyinə diqqət çəkilib. İştirakçılar Ermənistanın öz öhdəliklərinə uyğun olaraq kommunikasiyaları açmasının Cənubi Qafqazda ümumi rifaha və sabitliyə yardım edəcəyini vurğulayıblar. "İştirakçılar qayıdış hüququnu regional sülh və ədalətin əsas prinsipi kimi qəbul etməkdə qərarlı olduqlarını təsdiq etdilər. Onlar Qərbi azərbaycanlıların sülh, təhlükəsizlik və ləyaqətlə geri dönüşünün yalnız siyasət prioriteti deyil, həm də insan hüquqları və ləyaqətin təmin edilməsinə kollektiv qətiyyətin sınağı olduğunu vurğuladılar", - deyə yekun sənəddə bildirilib.

***Mübariz ABDULLAYEV***

# Dekabrın 10-dan 30-dək...

## Bələdiyyə seçkilərində mühüm mərhələ

**Nümunəvi inkişaf modelinə malik olan Azərbaycanda son illərdə bələdiyyələr icra mexanizminin mühüm bir qoluna çevrilməkdədir. Funksional icra mexanizmi kimi yerli özünüidarəetmə orqanlarının rolunun artması isə ilk növbədə dövlətin bələdiyyələrə göstərdiyi davamlı qayğı, məqsədyönlü şəkildə aparılan islahatlar, səmərəli fəaliyyəti hədəfləyən hüquqi bazanın möhkəmləndirilməsi sayəsində mümkün olur.**

**Hazırda ölkəmiz sayca altıncı bələdiyyə seçkiləri ərəfəsindədir. Mərkəzi Seçki Komissiyasının qərarına əsasən, yerli özünüidarəetmə orqanlarına növbəti seçkilər gələn il yanvarın 29-da keçiriləcək. Bu, müstəqillik tariximizdə respublikanın bütün ərazisində keçiriləcək ilk bələdiyyə seçkiləri olacaq.  MSK-nın sədri Məzahir Pənahovun verdiyi məlumata əsasən Azərbaycanda 685 bələdiyyə üzrə ümumilikdə, 8071 üzv seçiləcək.**

### Namizədlərin qeydə alınması üçün...

Respublikamızda növbəti bələdiyyə seçkilərinin də rəqabət şəraitində və şəffaf şəkildə baş tutması üçün ciddi hazırlıqlar görülür. Məlum olduğu kimi, MSK tərəfindən "Azərbaycan Respublikasında bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim planı" təsdiqlənib. Qarşıdan gələn seçkilərlə bağlı bütün fəaliyyətlər bəhs oluan sənədə uyğun qaydada həyata keçirilir. İndiyədək MSK-nın bir neçə iclasında seçkilərlə bağlı aktual müzakirələr aparılıb və mühüm qərarlar qəbul olunub.

"Təqvim planı"na uyğun olaraq gələn həftədən etibarən seçki prosesində mühüm mərhələ başlayır. Söhbət bələdiyyə seçkiləri ilə əlaqədar namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin dairə seçki komissiyasına təqdim edilməsinə start verilməsindən gedir. Bununla bağlı müvafiq müddəa bəhs olunan sənəddə öz əksini tapıb.

"Təqvim planı"nda qeyd edilib ki, namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərini namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiyanın və ya siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi DSK-ya təqdim edə bilər.

Seçki Məcəlləsinə əsasən, seçki sənədləri səsvermə gününə ən çoxu 50, ən azı 30 gün qalmış saat 18:00-dək təqdim edilməlidir. "Təqvim planı"nda bu müddət 2024-cü il dekabrın 10-dan dekabrın 30-u saat 18.00-dək nəzərdə tutulub.



### Bələdiyyə sədrləri necə seçiləcəklər?

Azərbaycanda bələdiyyələrin yeni tərkibinin ilk iclasının keçirilməsi və sədrinin seçilməsi ilə bağlı qaydalar da təsdiqlənib. Bu, "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" qanunlara edilən dəyişikliyə əsasən mümkün olub. Xəbər verildiyi kimi, Prezident İlham Əliyev müvafiq dəyişikliyin əks olunduğu Qanunu imzalayıb

Dəyişikliyə əsasən, yeni seçilən bələdiyyənin ilk iclası Mərkəzi Seçki Komissiyası tərəfindən bələdiyyə seçkilərinin yekunları elan edildikdən sonra beş iş günü müddətində keçiriləcək. Bələdiyyənin ilk iclasında bələdiyyənin sədri seçilənədək yaşı daha çox olan üzv iclasa sədrlik edəcək. İclasa sədrlik edən bələdiyyəyə üzv seçilmiş şəxslərin siyahısını elan edəcək, ilk iclası bələdiyyə sədri və iclas katibi seçilənədək aparacaq.

Bələdiyyənin sədri açıq və ya gizli səsvermə yolu ilə seçiləcək. Bələdiyyənin sədri bələdiyyə üzvlərinin yarısından çoxunun səsini topladıqda seçilmiş hesab olunacaq. Bələdiyyənin ilk iclasında bələdiyyə sədri və iclas katibi seçildikdən sonra iclasın gündəliyi təsdiq ediləcək.

***Mübariz FEYİZLİ***

# Minsk qrupu kağız üzərində niyə saxlanılır?

## ATƏT-in bu lazımsız qurumu rəsmi qaydada ləğv olunmalıdır

**Azərbaycanın xarici siyasətində beynəlxalq təşkilatlarla əməkdaşlıq mühüm yer tutur. Məhz bunun nəticəsidir ki, ölkəmiz bir sıra beynəlxalq təşkilatların fəal üzvüdür. Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində də aktiv siyasət həyata keçirir. Bu təşkilatlar arasında ATƏT də xüsusi vurğulanmalıdır.**

## Ceyhun Bayramov: Avropada islamofobiyanın artması narahatlıq doğurur

Qeyd edək ki, dekabrın 5-də Maltanın paytaxtı Valetta şəhərində ATƏT Nazirlər Şurasının 31-ci iclası keçirilib. İclasda çıxış edən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, təşkilatın Nazirlər Şurasının iclası olduqca mürəkkəb dövrə təsadüf edir. Beynəlxalq hüququn pozulması, beynəlxalq öhdəliklərin yanlış təfsiri və selektiv şəkildə tətbiqi inam və etimadın azalmasının, habelə çoxtərəfliliyin davam edən böhranının əsasında dayanır. Eyni zamanda, təhlükəsizlik və sabitlik heç bir sərhəd tanımayan və çoxtərəfli həllər tələb edən artan transmilli çağırışların mövcudluğuna görə təhdid altındadır. Onun sözlərinə görə, Avropada islamofobiya və antisemitizm kimi etnik, dini dözümsüzlüyün və ayrı-seçkiliyin artması narahatlıq doğurur.

Nazir qeyd edib ki, ATƏT-ə üzv olan müvafiq dövlətlərin təşkilat çərçivəsində aidiyyəti və beynəlxalq öhdəliklərinə əməl etmələri son dərəcə vacibdir: "Helsinki Yekun Aktından başlayaraq, ATƏT-in bütün sənədlərində təsbit olunmuş fundamental norma, prinsip və öhdəliklərə hörmət edilməsi və əməl olunması, xüsusilə dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmət, təhlükəsizlik və sülhün təməl daşı, eləcə də dialoq və əməkdaşlıq üçün əsas olmalıdır. Azərbaycan ATƏT-in də daxil olduğu effektiv çoxtərəfliliyin güclü tərəfdarı olaraq qalır və büdcənin qısa zamanda qəbul edilməsi, habelə ATƏT-in funksionallığı ilə bağlı, baş katibin və icra strukturlarının rəhbərlərinin təyin edilməsi məsələsi ətrafında yaranmış çıxılmaz vəziyyətin həll olunması məsələlərinin həllində konstruktiv qarşılıqlı fəaliyyətə çağırır. Təşkilatın məhdud resursları ATƏT-in Maliyyə Qaydalarına tam uyğun olaraq, ən çox ehtiyacın duyulduğu istiqamətə, aktual və konsensusun mövcud olduğu proqram fəaliyyətlərinin maliyyələşdirilməsinə yönəldilməlidir".

**"Helsinki Yekun Aktından başlayaraq, ATƏT-in bütün sənədlərində təsbit olunmuş fundamental norma, prinsip və öhdəliklərə hörmət edilməsi və əməl olunması, xüsusilə dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmət, təhlükəsizlik və sülhün təməl daşı, eləcə də dialoq və əməkdaşlıq üçün əsas olmalıdır"**



Qeyd edək ki, toplantı çərçivəsində Ceyhun Bayramov Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas ilə görüşüb. Görüşdə Azərbaycan və Aİ münasibətlərinin hazırkı durumu, enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiyalar, habelə ətraf mühitin qorunması istiqamətində əməkdaşlıq imkanları, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol diqqətə çatdırılıb. Ölkəmizin COP29 sədrliyi çərçivəsində xüsusilə maliyyə hədəflərinin artırılması daxil olmaqla, iqlim dəyişmələri ilə mübarizə sahəsində dönüş yarada biləcək tarixi razılıqların, eləcə də "yaşıl enerji" sahəsində əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

## Tarixi imkan yaranıb

C.Bayramov deyib ki, Azərbaycan və Ermənistanın qarşıdurma səhifəsini çevirmək və mehriban qonşuluq münasibətləri qurmaq üçün tarixi imkan yaranıb. Bu həlledici məqamda suverenliyə və ərazi bütövlüyünə qarşılıqlı hörmət əsasında münasibətlər normallaşdırılmalıdır. Azərbaycanın bu məsələdə qətiyyəti dəyişməzdir və biz buna qarşılıq olaraq Ermənistan tərəfindən də siyasi iradə və məsuliyyət gözləyirik. "Eyni zamanda, bütövlükdə beynəlxalq ictimaiyyət, o cümlədən burada ATƏT çərçivəsində, hazırkı prosesə zərər verməmək, təxribatçı hərəkətlərdən və gərginliyin artmasından çəkinməkdən məsuldur",-deyə nazir vurğulayıb.

## ATƏT zərərli ambisiyaların girovuna çevrilməsinə baxmayaraq...

C.Bayramov çıxışında ATƏT-in keçmiş Minsk prosesi ilə bağlı strukturlarının köhnə və reallığa uyğun olmadığını da diqqətə çatdırıb. Bu strukturların kağız üzərində saxlanması təşkilatın Maliyyə Qaydalarına ziddir. Müvafiq olaraq, bu vəziyyət büdcə prosesi çərçivəsində tənzimlənməlidir. "ATƏT-in zərərli ambisiyaların girovuna çevrilməsinə baxmayaraq, bölgədə Ermənistan-Azərbaycan kontekstində xeyli irəliləyişlər əldə edilib. Qanunsuz hərbi mövcudluğun aradan qaldırılması, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpası nəticəsində artıq sülh faktiki olaraq bərqərar edilib. Bu, substantiv şəkildə dövlətlərarası münasibətlərin normallaşmasına yol açmaq üçün yeni imkanlar yaradıb",-deyən XİN başçısı əlavə edib ki, Nazirlər Şurasının son iclasından bəri Azərbaycan və Ermənistan birbaşa ikitərəfli dialoq vasitəsilə sərhədlərinin bir hissəsinin delimitasiyasını və demarkasiyasını başa çatdırıblar. Müvafiq sərhəd komissiyalarının birgə fəaliyyəti haqqında bu yaxınlarda qüvvəyə minmiş Əsasnamə delimitasiya işinin növbəti mərhələlərinin həyata keçirilməsini təmin edəcək. Digər bir istiqamət üzrə isə ikitərəfli saziş layihəsinin mətni üzərində fəaliyyətdə əhəmiyyətli irəliləyiş əldə olunub.

Nazirin fikrincə, bu nailiyyətlər birbaşa ikitərəfli danışıqların Azərbaycanın ardıcıl olaraq mübarizə apardığı normallaşma prosesində irəliləməyin ən yaxşı və yeganə əlverişli yolu olduğunu əyani şəkildə göstərir: "Əldə olunan tərəqqiyə baxmayaraq, normallaşma istiqamətində həll olunmamış problemlər də qalmaqdadır. Onun yekunlaşdırılması Ermənistanın hələ də konstitusiyasında və digər qanunvericilik aktlarında təsbit edilmiş ərazi iddialarını aradan qaldırmaqla, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmət etməklə bağlı bəyan etdiyi öhdəliyini əməli surətdə həyata keçirməsindən asılıdır. Sülh və mehriban qonşuluq münasibətləri, Ermənistan konstitusiyasında Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün tanınmasının şübhə altına alındığı və ikitərəfli sazişin icrasının Ermənistanın daxili hüquqi və ya siyasi ssenarilərindən asılı olacağı təqdirdə, davamlı və dönməz ola bilməz".

**Azərbaycan və Ermənistanın qarşıdurma səhifəsini çevirmək və mehriban qonşuluq münasibətləri qurmaq üçün tarixi imkan yaranıb. Bu həlledici məqamda suverenliyə və ərazi bütövlüyünə qarşılıqlı hörmət əsasında münasibətlər normallaşdırılmalıdır. Azərbaycanın bu məsələdə qətiyyəti dəyişməzdir**



C.Bayramov, qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, bu fəaliyyətə maneə törədən mina təhdidi, habelə Azərbaycanın Ermənistanla normallaşma gündəliyi barədə məlumatlandırıb. Ermənistanın ölkəmizə qarşı davam edən ərazi iddialarının sülh prosesinə maneə təşkil etdiyi qeyd olunub.

Avropa İttifaqının Ermənistandakı missiyasının fəaliyyətinə toxunan nazir sözügedən missiyanın bəyan olunmuş məqsədlərinə zidd olaraq ölkəmiz əleyhinə təbliğat kampaniyasının alətinə çevrilməsinin narahatlıq doğurduğunu diqqətə çatdırıb.

Görüşdə, tərəflər həmçinin gündəlikdə duran və qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparıb.

## Aİ-nin missiyası ölkəmiz əleyhinə təbliğatda alətə çevrilib

Azərbaycanın XİN başçısı, həmçinin Finlandiya, Gürcüstan, Slovakiya, Sloveniya, Andorra və İsveçrədən olan həmkarları ilə də görüşüb. Görüşlər zamanı ikitərəfli əlaqələrin müzakirəsi ilə yanaşı avropalı diplomatlar Cənubi Qafqazdakı vəziyyət barədə də məlumatlandırılıblar.

*Nardar BAYRAMLI*

# Sülhə nə qaldı?

## Azərbaycanın şərtlərinə əməl ediləcəyi təqdirdə...

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması, sülhün əldə edilməsi Cənubi Qafqaz üçün yeni üfüqlər yaradır. Bu amil mühüm bir mərhələdə - dünyada yeni nizam qaydaları formalaşdığı bir dövrdə regionumuzun sabit və inkişafa yönəlik üstünlüklərini göz önünə çıxaracaq və təsdiqləyəcək. Təbii ki, ötən dövrdə bu istiqamətdə atılan addımlar, irəli sürülən təkliflər Azərbaycanın təşəbbüsü ilə ortaya çıxıb - sülh prosesinin məntiqi nəticəyə yaxınlaşması, ikitərəfli təmaslar sayəsində müəyyən irəliləyişlərə nail olunması isə daha çox Ermənistan üçün perspektiv vəd edir. Cənubi Qafqazın stabil və sabit məkan kimi şöhrət qazanması, tanınması, qlobal layihələrin bizim coğrafiyada təşəkkül tapması üçün əsasa çevrilir. Bu isə Ermənistan üçün olduqca mühümdür - bu ölkə məhz Azərbaycanla münasibətlərin normallaşması nəticəsində regionun ümumi inkişaf tempinə inteqrasiya edə biləcək.

## Maddələr razılaşdırılır...

## Ermənistan rəsmiləri "sülh yaxındır" deyir...



Sülh prosesinin indiki məqamında isə nəticəyə yaxınlıq hiss edilməkdədir - bu istiqamətdə müzakirələr daha da intensivləşib. Verilən açıqlamalar da onu göstərir ki sülh çox uzaqda deyil. Yeri gəlmişkən, Ermənistanın baş naziri Nikol Paşinyan deyib ki, İrəvan və Bakı sülh sazişi layihəsinin mətninin 90 faizini razılaşdırıblar. O qeyd edib ki, prosesin başa çatdırılması və sözügedən sənədin imzalanması üçün qarşıda tərəfləri ciddi iş gözləyir.

Maltada ATƏT Nazirlər Şurasının iclasında çıxışı zamanı Ermənistanın XİN rəhbəri Ararat Mirzoyan isə bildirib ki, Azərbaycan və Ermənistan sülh mətninin preambulası və 17 maddəsindən 15-i üzrə razılığa gəlib. O qeyd edib ki, Ermənistan Bakı ilə münasibətlərin tam normallaşmasına yönəlmiş danışıqlarda konstruktiv iştirakını davam etdirir.

Ermənistan parlamentinin rəhbəri Alen Simonyan sülh müqaviləsi prosesinin hansı mərhələdə olduğu sualını cavablandırarkən bildirib ki, sülh müqaviləsi layihəsi üzrə müzakirələr davam edir, proses təklif-müzakirə məntiqi ilə irəliləyir. "Proses dayanmayıb. COP29-un Bakıda keçirilməsi ilə əlaqədar olaraq, Azərbaycan tərəfi danışıqlarda fasilənin işin çoxluğu ilə əlaqədar olduğunu bildirdi. Amma biz müsbət mərhələdəyik və təklif-müzakirə-təklif məntiqindəyik. Müsbət dinamika var", - deyə Simonyan vurğulayıb.

Sülhlə bağlı Ermənistan parlamentində hakim "Vətəndaş sazişi" partiyasının parlament fraksiyasının katibi Artur Ovannisyan da fikirlərini bölüşüb - bildirilib ki, sülh müqaviləsi layihəsi ilə bağlı Azərbaycanla danışıqlar dalana dirənməyib. Erməni deputatın sözlərinə görə, danışıqlar prosesi davam edir.

## Azərbaycanın mövqeyi...

Beləliklə, prosesin uğurla davam etməsi ilə bağlı yayılan xəbərlər həm də mühüm nəticələr üçün ümid yaradır. Artıq Ermənistan rəhbərliyi anlayır ki, bu məsələdə Azərbaycanın iradəsi əsas şərtdir - ölkəmizin beynəlxalq hüquqa söykənən və ədalətə əsaslanan şərtləri regionun təhlükəsiz gələcək inkişafı üçün əsasdır. Əbədi sülhün formalaşması üçün isə ən vacib şərt Ermənistanın uzun illərdir ki, davam edən əsassız iddialarından geri çəkilməsi, paralel olaraq ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı mövqeyini açıqlamasıdır. İrəvan yalnız rəsmi şəkildə Konstitusiyasında dəyişiklik etməklə sülh prosesinin ardıcıllığını təmin edə bilər - bu, gələcək kataklizmlərin yaranması ehtimalını da indidən aradan qaldırmış olur. Ermənistan Konstitusiyası dəyişmədikcə bu ölkənin Azərbaycana qarşı ərazi iddialarının hər an eskalasiyaya çevrilmə təhlükəsi var. Beləliklə, yaxın zamanda bu dəyişikliyin edilməsi perspektivi sülhü də yaxınlaşdıran amil kimi çıxış edəcək.

**Prosesin uğurla davam etməsi ilə bağlı yayılan xəbərlər həm də mühüm nəticələr üçün ümid yaradır. Artıq Ermənistan rəhbərliyi anlayır ki, bu məsələdə Azərbaycanın iradəsi əsas şərtdir - ölkəmizin beynəlxalq hüquqa söykənən və ədalətə əsaslanan şərtləri regionun təhlükəsiz gələcək inkişafı üçün əsasdır**

## Əməlinin cavabını verməlidir...

Azərbaycanın sülhlə bağlı mövqeyi isə sırf beynəlxalq qanunvericiliyə əsaslanır - ölkəmiz bütün məsələlərin ən xırda detallarına qədər araşdırılmasını istəyir. 30 il ərzində Ermənistanın ölkəmizə qarşı apardığı təcavüzkar siyasət, ərazilərimizin dağıdılması, erməni barbarlığı, şəhər və kəndlərimizin yer üzündən silinməsi, mədəni, dini abidələrimizə qarşı soyqırımı siyasətinin tətbiqi, ərazilərimizin minalanması və bu kimi onlarla cinayətkar əməllər ortaya çıxmalı, hüquqi qiymətini almalıdır. Təsadüfi deyil ki, bu həqiqətlərin tam şəkildə ortaya çıxması yönündə də Azərbaycan bir neçə istiqamətdə iş aparır - nəticə etibarı ilə bütün dünya ermənilərin törətdiklərini görür. Səmimi sülhün əldə olunması üçün bu kimi suallar öz cavabını tapmalıdır. Ermənistan 30 il ərzində törətdiyi cinayətkar əməllərə görə həm mənəvi, həm də maddi borcunu ödəməlidir...

## Həm sülh deyir, həm də...

Amma nəzərə alınmalıdır ki, qarşıdakı Ermənistandır - manipulyasiyanı özünün "milli kredosu"na çevirmiş Ermənistan bir tərəfdən sülh haqqında danışır, digər tərəfdən yenə də aktiv şəkildə silahlanır.

İrəvan Hindistandan və Fransadan aldığı silahlardan sonra indi də Yunanıstanın köhnə və "qeydiyyatdan çıxarılmış" silah-sursatını ölkəsinə "daşımağa" meyllənir. Bu fəaliyyət isə Ermənistanın siyasi rəhbərliyinin sülh ritorikası ilə düz gəlmir - Ermənistan anlamaldır ki, silahlanma həm sülh prosesini, həm də bu ölkənin gələcək üçün ümidlərini zərbə altında qoya bilər...

*P.İSMAYILOV*

# "İctimai sağlamlıq və təhlükəsizlik: mənfi təsirlərdən özünü və ətrafını qoru!"




Dekabrın 6-da Lənkəran şəhərində "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC arasında imzalanmış Tədbirlər Planına uyğun olaraq "İctimai sağlamlıq və təhlükəsizlik: mənfi təsirlərdən özünü və ətrafını qoru!" mövzusunda tədbir təşkil olunub.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə YAP Lənkəran rayon təşkilatının sədri İqbal Əmənullayev, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini, ŞİH yanında Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyanın sədri Mikayıl Cəfərzadə, Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev və Səhiyyə Nazirliyinin Sumqayıt Şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov çıxış ediblər.



Çıxışlarda narkomaniya ilə mübarizədə maarifləndirmə işlərinin önəmi vurğulanıb. Yeniyetmə və gənclərin zərərli vərdişlərdən qorunması, sağlam həyat tərzinin təşviqi və təbliğat işlərinin gücləndirilməsinin vacibliyi qeyd edilib. Bildirilib ki, Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş "2019-2024-cü illər üçün Dövlət Proqramı" bu problemə qarşı sistemli və məqsədyönlü mübarizənin aparılması üçün müstəsna əhəmiyyət daşıyır.

Eyni zamanda, gənclərin bilik və bacarıqlarının artırılması, elmə, təhsilə və idmana marağının yüksəldilməsi onların zərərli vərdişlərdən uzaq qalmasında əsas amil kimi vurğulanıb. Müasir dövrdə gənclərin cəmiyyət həyatında fəal iştirakının dövlət gənclər siyasətinin əsas prioritetlərindən biri olduğu qeyd edilib.

İnteraktiv formada davam etdirilən tədbirdə iştirakçıların sualları cavablandırılıb.

Tədbir iştirakçılarına narkomaniya ilə mübarizənin təşviqi məqsədilə Dövlət Komissiyasının İşçi qrupu tərəfindən hazırlanmış əyani vəsaitlər paylanıb.

Sonra YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib.

Tədbirə Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə yekun vurulub.

# YAP Gənclər Birliyinin iclası keçirilib



Dekabrın 6-da Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin iclası keçirilib.

İclasda YAP Gənclər Birliyinin 2024-cü il ərzində həyata keçirdiyi işlər və gələcək fəaliyyət istiqamətləri müzakirə edilib.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov 2024-cü ildə Birliyin fəaliyyətinin Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının tövsiyə və tapşırıqlarına uyğun təşkil edildiyini vurğulayıb. O, "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Yaşıl dünya üçün innovasiyalar" Rəqəmsal İdeya Müsabiqəsi və ümumrespublika "Nə? Harada? Nə zaman?" intellektual oyununun keçirildiyini bildirib. Bu tədbirlərin gənclərin innovasiyayönümlü potensialını üzə çıxarmaq, həmrəylik ruhunu gücləndirmək və ekoloji maarifləndirməyə dəstək vermək məqsədi daşıdığı vurğulanıb.

İclasda ali təhsil müəssisələrində fəaliyyət göstərən "YENİ Klub"ların əhatə dairəsinin genişləndirilməsi və fəaliyyətlərinin inkişaf etdirilməsi üçün təkliflər irəli sürülüb, eləcə də YAP Gənclər Birliyinin qarşıdakı 6 aylıq fəaliyyət planı müzakirə olunub. Bu çərçivədə 2025-ci ildə tələbələrin intellektual potensialını, liderlik bacarıqlarını inkişaf etdirmək, yaradıcı təşəbbüslərini artırmaq və onları innovativ fəaliyyətlərə təşviq etmək məqsədilə daha çox layihənin reallaşdırılması qərara alınıb.




# Sənaye parkı ailəsinin 8-ci üzvü

## Naxçıvan Sənaye Parkının yaradılması ölkəmizin sənaye potensialının və iqtisadi gəlirlərin artmasına əlavə güc qatacaq

Prezident İlham Əliyevin dekabrın 5-də imzaladığı Fərmana əsasən, Naxçıvan Muxtar Respublikasında Naxçıvan Sənaye Parkı yaradılacaq. Naxçıvan şəhərinin cənub-qərb hissəsində, Naxçıvan-Sədərək avtomobil yolunun cənubunda 310 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsində təşkil olunacaq yeni Sənaye Parkının layihələndirmə işlərinin həyata keçirilməsi məqsədilə Prezidentin Ehtiyat Fondundan Agentliyə 500 min manat ayrılacaq. İlkin mərhələdə Sənaye Parkının ərazisində kommunal xidmət infrastrukturları və digər obyektlər yaradılacaq və sahibkarlıq fəaliyyətinin səmərəli təşkili üçün müvafiq xidmətlər təşkil olunacaq.

Sənaye Parkının yaradılmasında əsas məqsəd Muxtar Respublikanın iqtisadi imkanlarının daha da artırılması, qeyri-neft sektorunun davamlı inkişafına töhfə verəcək resursların tam hərəkətə gətirilməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun daha da artırılmasıdır.

Beləliklə, Azərbaycanda sənaye parkı ailəsinə daha bir iqtisadi subyektin daxil olması ilə ölkəmizdə yaradılmış bu iqtisadi modellərin sayı 8-ə çatmış olur. Belə ki, ölkəmizdə Sumqayıt Kimya, Pirallahı, Mingəçevir, Qaradağ, Ağdam və "Araz Vadisi İqtisadi Zonası" və Hacıqabul Sənaye Parkı fəaliyyət göstərir. Həmin parkların hər biri yerləşdiyi ərazinin coğrafi və iqtisadi spesifikasına, sənaye xüsusiyyətlərinə uyğun olaraq müxtəlif adda sənaye məhsulları istehsal edir və yaxud istehsalın təşkili ilə məşğuldur. Ümumlikdə, 4-cü sənaye inqilabının ən inadlı və innovativ hədəflərini qarşıya məqsəd qoymuş Azərbaycanın siyasi niyyəti bütün sənaye parklarını vahid ailədə birləşdirməklə dünya bazarında üstün rəqabətə nail olmaq, daha geniştutumlu malların ixracını təmin etməkdir.

### İqtisadi təşviqlər, vergi-gömrük güzəştləri...

Sənaye parkları yaradıldığı ilk gündən müxtəlif iqtisadi stimullar, güzəştlər, dövlət dəstəyi tədbirləri verib, ən münbit şəraiti formalaşdırıb, parklara investisiya qoyuluşlarını motivasiya etmək üçün sahibkarlara dünya praktikasında azad iqtisadi zonalarda tətbiq olunan səmərəli iqtisadi alətləri təmin edib. Vergi qanunvericiliyinə edilmiş dəyişikliklərə əsasən, sənaye parklarının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin edilir. Eyni zamanda, qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak vergisi, torpaq vergisi və mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunurlar. Eləcə də işğaldan azad edilmiş ərazilərdə (Ağdam və "Araz Vadisi İqtisadi Zonası") fəaliyyət göstərən sahibkarlar istehsal prosesində istifadə etdikləri bir sıra xammal və materialların idxalı da 10 il müddətinə ƏDV-dən azad olunublar. Həmçinin istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara 10 il müddətində hər ay istehlak olunan kommunal xidmətlərin (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) tariflərinə uyğun olaraq ödədikləri vəsaitin 20 faizi dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımı ödənilir.



**4-cü sənaye inqilabının ən inadlı və innovativ hədəflərini qarşıya məqsəd qoymuş Azərbaycanın siyasi niyyəti bütün sənaye parklarını vahid ailədə birləşdirməklə dünya bazarında üstün rəqabətə nail olmaq, daha geniştutumlu malların ixracını təmin etməkdir**

Ümumilikdə isə indiyədək sənaye parklarında çalışan rezidentlər 400 milyon manata yaxın vergi güzəştindən faydalanıblar. Sənaye parklarında tətbiq edilmiş idxal ƏDV-si və gömrük güzəştləri nəticəsində rezidentlər indiyə qədər 500 milyon manata yaxın vəsaitə qənaət ediblər. Bu stimullaşdırıcı siyasət tədbirləri öz müsbət bəhrəsini verib və indiyə qədər Azərbaycandakı sənaye zonalarında 13 milyard manata yaxın məhsul istehsal edilib ki, onun böyük bir hissəsi sənaye parklarının payına düşür.

### Qeyri-neft sənayesinə Naxçıvanın töhfəsi...

Naxçıvan Sənaye Parkında rəqabətqabiliyyətli məhsul istehsalı və xidmətlər göstərilməsi üçün təşviqedici iqtisadi tədbirlər görüləcək, səmərəli investisiya siyasəti yürüdüləcək. Ərazidə müxtəlif istehsal və emal, təkrar emal sahələrinin formalaşması sayəsində ixracyönlü dəyər zənciri qurulacaq. Sənaye təyinatlı yeni müəssisələrdə dayanıqlı iş yerlərinin yaradılması əhalinin sosial rifahına müsbət təsir göstərəcək. Həmçinin, bölgənin yüksək sənaye potensialı səfərbər olunmaqla xarici bazarlara çıxarılacaq ki, bu da Naxçıvanın iqtisadi inkişafında yeni mərhələ açacaq.

**Vergi qanunvericiliyinə edilmiş dəyişikliklərə əsasən, sənaye parklarının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin edilir. Eyni zamanda, qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak vergisi, torpaq vergisi və mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunurlar**

Naxçıvan Sənaye Parkının yaradılması ölkəmizin sənaye potensialının və iqtisadi gəlirlərin artmasına əlavə güc qatacaq. Bu Sənaye Parkı Azərbaycanın sənaye ixracına qoşulmaqla qeyri-neft sənayesinin inkişafına da mühüm töhfələr verəcək. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda qeyri-neft-qaz sənaye ixracının payının 25 faiz artırılması nəzərdə tutulub, bu amil sənaye parkların ailəsində yer alan Naxçıvan Sənaye Parkının qlobal bazarın tələblərinə uyğun ən müasir sənaye mərkəzinə çevriləcəyinə şərtləndirir.

*Elbrus CƏFƏRLİ*

# Həm kredit tərəfdaşı, həm də aparıcı səhmdar...

## Azərbaycan Qara Dəniz Ticarət və İnkişaf Bankının ən etibarlı üzvlərindən birinə çevrilib

Türkiyənin İstanbul şəhərində Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) Rəhbərlər Şurasının 26-cı İllik Toplantısında bu maliyyə qurumu ilə Azərbaycan arasında mövcud əməkdaşlığın vəziyyəti yüksək dəyərləndirilib. QDTİB-in ölkəmizdə müxtəlif sektorları əhatə edən layihələrə verdiyi maliyyə dəstəyinin davamlı olduğu xatırladılıb. Bankın Rəhbərlər Şurasının üzvü, Azərbaycanın maliyyə naziri Samir Şərifov QDTİB ilə ölkəmiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi və gücləndirilməsi üçün potensialların böyük olduğunu, bankın Azərbaycanda daha çox investisiya ayıracağına əminliyini ifadə edib.

Qeyd edək ki, QDTİB beynəlxalq dövlətlərarası maliyyə kredit təşkilatıdır. Bank Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlər - Albaniya, Azərbaycan, Ermənistan, Bolqarıstan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya Federasiyası, Türkiyə, Yunanıstan və Ukrayna tərəfindən yaradılıb.

QDTİB iqtisadi inkişafı və regional əməkdaşlığı dəstəkləyir, üzv ölkələrdə dövlət və özəl sektorlarda layihələr üçün kreditlərin verilməsi, kredit xətlərinin açılması, investisiyaların və zəmanətlərin verilməsində və ticarətin maliyyələşdirilməsində iştirak edir.




### 500 milyon avrodan çox maliyyə donorluğu

Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə Azərbaycan arasında əlaqələrin 25 illik tarixi ərzində mühüm layihələrin icrası həyata keçirilib. 1999-cu ildə Azərbaycanın iştirakı ilə təsis edilmiş bu beynəlxalq maliyyə institutu ölkəmizin iqtisadiyyatına investisiyaların qoyulmasında, xüsusilə özəl sektorun maliyyələşməsində fəal rol oynayıb. Bankın Azərbaycandakı əsas portfeli kiçik və orta sahibkarlığa dəstək (47,5 faiz), enerji (35 faiz), daşınmaz əmlak (8,4 faiz), istehlak malları (4,8 faiz) və sənaye (4,4 faiz) ) təşkil edir.

Fəaliyyətə başladığı vaxtdan QDTİB Azərbaycan hökumətinin investisiya prioritetlərinə uyğun olaraq ümumi dəyəri 500 milyon avrodan çox olan 40 layihəni maliyyələşdirib. Bank "Şahdəniz" kimi strateji əhəmiyyətli enerji layihələrində iştirak edib, eyni zamanda, kiçik və orta biznesə davamlı dəstəyini artırıb. Ümumilikdə, Qara Dəniz Bankının Azərbaycana yönəltdiyi investiyaların həcmi ümumi kredit portfelinin təxminən 10 faizlik resursu həcmindədir.

Azərbaycan bu bankın üzvü olmaqla yanaşı, həm də səhmdarlardan biridir. QDTİB-in səhm kapitalında ölkəmiz 5 faiz paya malikdir ki, bu, 7-ci ən böyük səhmdarlıq statusu deməkdir. QDTİB-nin Rəhbərlər Şurasının 2021-ci ilin oktyabrında keçirilən Xüsusi Toplantısında bankın abunə kapitalının artırılmasında Azərbaycan da mühüm rol oynayıb, ümumi dəyəri 41 milyon avro təşkil edən 36,6 min səhmin 12,3 milyon avro məbləğində olan hissəsi ölkəmiz tərəfindən əldə edilib.

**QDTİB ölkəmizlə yeni əməkdaşlıq mərhələsində "yaşıl maliyyələşmə" və investisiyaların artırılmasını da istiqamətlərdən biri hesab edir. Bu məqsədlə Azərbaycanın maliyyə institutları, o cümlədən banklarla "yaşıl layihələr" üzrə müqavilə imzalanması nəzərdə tutulur. Bankın rəhbərliyi COP29 çərçivəsində qlobal alyansın razılaşdırdığı iqlim maliyyəsi strategiyasına da müsbət yanaşaraq iqlim donorluğunda imkanlarını səfərbər ediləcəyini də bildirib**

### Əməkdaşlığın yeni gündəliyi - "yaşıl enerji" və "yaşıl maliyyə"...

Qara Dəniz Bankı ilə Azərbaycan arasında əməkdaşlığın müasir gündəliyində KOB-ların inkişafı və sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının artırılması, "yaşıl iqtisadiyyat"ın təşviqi məqsədilə korporativ və fərdi müştərilərin ehtiyaclarının kreditləşdirilməsi və digər prioritetlər daxildir. Həmçinin, işğaldan azad edilmiş ərazilərdə biznesə dəstək və müasir sənaye-emal zəncirinin qurulmasından bankın donorluğu istisna olunmur. SOCAR-la "yaşıl enerji" üzrə layihələrin həyata keçirilməsi də danışıqlar mövzusundadır. Bir neçə ay əvvəl Bakıda olan bankın vitse-prezidenti Draqoş-Paul Ungureanu işğaldan azad edilmiş ərazilərin bərpası və bərk məişət tullantılarının idarə olunması layihələrinin maliyyələşdirilməsində iştirakın mümkünlüyünü vurğulayıb.

**Fəaliyyətə başladığı vaxtdan QDTİB Azərbaycan hökumətinin investisiya prioritetlərinə uyğun olaraq ümumi dəyəri 500 milyon avrodan çox olan 40 layihəni maliyyələşdirib**

QDTİB ölkəmizlə yeni əməkdaşlıq mərhələsində "yaşıl maliyyələşmə" və investisiyaların artırılmasını da istiqamətlərdən biri hesab edir. Bu məqsədlə Azərbaycanın maliyyə institutları, o cümlədən banklarla "yaşıl layihələr" üzrə müqavilə imzalanması nəzərdə tutulur. Bankın rəhbərliyi COP29 çərçivəsində qlobal alyansın razılaşdırdığı iqlim maliyyəsi strategiyasına da müsbət yanaşaraq iqlim donorluğunda imkanlarını səfərbər ediləcəyini də bildirib. Bu çərçivəyə əsasən, Azərbaycanın "yaşıl maliyyə" üzrə investisiya prioritetlərinə QDTİB-in maliyyə dəstəyi verəcəyi ehtimal olunur.

Qeyd edək ki, İstanbul toplantısında Qara Dəniz Bankının Rəhbərlər Şurası tərəfindən ortamüddətli strategiya sənədi, 2025-2026-cı illər üzrə biznes planı, cari kredit portfeli və maliyyələşdirmə mənbələri, habelə üzv ölkələr arasında bank və biznes sahəsində mövcud imkanların və potensialın daha da genişləndirilməsinə dair məsələlər müzakirə olunub. Strateji plana əsasən, bankın kredit portfelinin artırılmasına aparıcı səhmdarlardan biri kimi Azərbaycanın da rolunun artacağı, eləcə də kredit portfelində əlavə maliyyə resursları alacağı ehtimal edilir.

*E.CƏFƏRLİ*

# "Sen Martində Fransa və Niderland müstəmləkəçiliyi - bir ada, bir xalq, bir tale"

## Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilib

Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Fransa və Niderlandın müstəmləkəçiliyi altında olan Sen Martin adasına həsr edilmiş beynəlxalq konfrans keçirilib. "Sen Martində Fransa və Niderland müstəmləkəçiliyi - bir ada, bir xalq, bir tale" adlı konfransda müstəmləkəçiliyə qarşı mübarizə aparan və azad olmağa çalışan Sen Martin xalqının təmsilçiləri, habelə müstəmləkəçilik əleyhinə fəaliyyət göstərən təşkilatların rəhbərləri, parlament üzvləri, hüquq müdafiəçiləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, dekolonizasiya üzrə ekspertlər və tədqiqatçılar iştirak ediblər.




Konfransın açılışında çıxış edən Sen Martin parlamentinin üzvü Franklin Meyers bildirib ki, istər Fransanın, istərsə də Niderlandın müstəmləkəçiliyindən qurtularaq müstəqil olmaq xalqlarımızın ən müstəsna hüququdur. O, məhz bu hüququn dünya miqyasında tanınması üçün Bakıda olduqlarını qeyd edib. "Hesab edirik ki, analoji konfransların təşkili əsas ideyamız olan müstəqilliyə doğru irəliləmək yolunda son dərəcə mühüm addımdır", - deyən Sen Martin parlamentinin üzvü bu istiqamətdə göstərdiyi dəstəyə görə Bakı Təşəbbüs Qrupuna təşəkkür edib.

**Sen Martin adası həm Fransa, həm də Niderland tərəfindən müstəmləkə edilib və 1648-ci ildən bəri bu iki dövlət arasında bölünüb. Adanın Fransız hissəsi Saint-Martin, Niderland hissəsi isə Sint Maarten adlanır. Bu iki imperiya adanın idarəçilik, mədəniyyət və hüquq sistemlərini özlərindən asılı vəziyyətə salıb**

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov təşkilatın fəaliyyəti ilə bağlı geniş təqdimat edib. O, qrupun əsas missiyası və məqsədləri barədə danışaraq, həyata keçirilmiş layihələri və əldə edilən uğurları konfrans iştirakçılarının diqqətinə çatdıraraq vurğulayıb: "İndiyədək Bakı Təşəbbüs Qrupu kolonializmə aid 22 tədbir keçirib, 3 memorandum imzalanıb. Həmçinin müxtəlif beynəlxalq platformalarda çıxış edib".

Abbas Abbasov, həmçinin Bakı Təşəbbüs Qrupunun beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq əlaqələrini genişləndirmək istiqamətində gördüyü işləri də diqqətə çatdırıb. Onun sözlərinə görə, Bakı Təşəbbüs Qrupu Fransa və Niderlandın müstəmləkəçiliyindən əziyyət çəkən xalqların ağır sosial-iqtisadi şəraitdə yaşadığı ilə bağlı müxtəlif beynəlxalq təşkilatlara vaxtaşırı məlumatlar göndərir: "Biz indiyədək Yeni Kaledoniya və Martinik adalarının müstəmləkə şəraitində yaşayan xalqlarının azadlıq mübarizəsinə dəstək üçün həm yerli, həm də beynəlxalq platformalarda bir sıra tədbirlər həyata keçirmişik. Biz müstəmləkəçiliyə yalnız beynəlxalq hüququn normaları çərçivəsində mübarizə aparmaqla son qoyulmasının tərəfdarıyıq".

Çıxış edən Milli Məclisin deputatı Pərvanə Vəliyeva deyib ki, kolonializmin Sen Martin adasındakı təsirləri kimlik itkisindən və assimilyasiyadan çox uzağa gedib. O bildirib ki, adanın xalqı Fransa və Niderland arasında bağlanmış müqavilənin nəticələrindən hələ də əziyyət çəkir. Bu insanlar qeyri-insani ədalətsizliyə məruz qalıblar ki, bu da insanlıq adına bir utancdır. "Sen Martinin xalqı birdir, baxmayaraq ki, kolonializm onları iki yerə bölüb. Amma onlar oxşar talelərlə üzləşirlər. Hər iki hissədəki yerli xalqın ortaq problemlərin öhdəsindən gəlmək qabiliyyəti qəsdən zəiflədilib. Kolonial hakimiyyətlər Sen Martinin resurslarını guya adanın inkişafına kömək məqsədilə öz xeyirlərinə istifadə edirlər. Lakin aydın görünür ki, dərin iqtisadi monopolizm və tənəzzül Sen Martin xalqına zərər verməyə davam edir", - deyə deputat diqqətə çatdırıb.

Sonra "One Saint Martin" təşkilatının prezidenti Rhoda Arrindell "Sen Martində ikili müstəmləkəçilik irsi" mövzusunda təqdimatla çıxış edib. O, irsin sosial, mədəni və iqtisadi təsirlərinə toxunub. Həmçinin müstəmləkəçiliyin nəticələrinin aradan qaldırılmasının vacibliyini vurğulayaraq, Sen Martin xalqının birliyinə və müstəqilliyinə çağırış edib.

Konfransda, eyni zamanda, Fransanın və Niderlandın əsarəti altında olan və iki hakimiyyətin mövcud olduğu Sen Martin xalqının müstəmləkəçilikdən azad olmaq uğrunda apardığı mübarizə, habelə problemin aidiyyəti beynəlxalq təşkilatların gündəliyinə çıxarılması istiqamətində görülən işlər, beynəlxalq hüquqi mexanizmlər müzakirə olunub.



Qeyd edək ki, konfrans çərçivəsində "Bir adanın səsi" adlı debat təşkil edilib. Sen Martinin təhsil nazirinin keçmiş müşaviri Fabian Badejonun moderatorluğu ilə keçən paneldə Sen Martinin təhsil, səhiyyə və sosial inkişaf sahələrindəki vəziyyətə toxunulub, həmçinin iqtisadi müstəqilliyin və vahid bir cəmiyyətin qurulmasının önəmi vurğulanıb.

**"Biz müstəmləkəçiliyə yalnız beynəlxalq hüququn normaları çərçivəsində mübarizə aparmaqla son qoyulmasının tərəfdarıyıq"**

Digər çıxış edənlər - "One Saint Martin" təşkilatının prezidenti Rhoda Arrindell, Sen Martin parlamentinin üzvü Franklin Meyers "Nation Opportunity Wealth" (NOW) siyasi partiyasının lideri Kristofer Emanuel, Sen Martinin keçmiş səhiyyə, sosial inkişaf və əmək naziri Pamela Carty, Sen Martinin müstəqilliyi uğrunda mübarizə aparan fəal Cülyen Denis müstəmləkə şəraitində yaşamağın çətinliklərindən danışıblar. İştirakçılar adanın inkişafı üçün həm siyasi, həm də sosial dəstəyin artırılmasının vacibliyini söyləyiblər.

Müzakirələrdə çətinliklərlə yanaşı, Sen Martinin müstəqil bir gələcəyə doğru irəliləməsi üçün güclü bir birlik və davamlı mübarizənin vacibliyi vurğulanıb, bu istiqamətdə yeni strateji yanaşmaların hazırlanmasının əhəmiyyəti diqqətə çatdırılıb. Çıxışçılar, həmçinin Bakı Təşəbbüs Qrupuna müstəmləkəçiliyə qarşı mübarizədə göstərdikləri dəstəyə görə minnətdarlıqlarını bildiriblər.

Sonda Bakı Təşəbbüs Qrupu ilə Vahid Sen Martin ("One Saint Martin") Assosiasiyası arasında Anlaşma Memorandumu imzalanıb.

Memorandumu Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov və "One Saint Martin" Assosiasiyasının prezidenti Rhoda Arrindell imzalayıblar

Qeyd edək ki, Sen Martin adası müstəmləkəçilik dövründə və ondan sonrakı müddətdə özünəməxsus xüsusiyyətləri ilə digər müstəmləkələrdən fərqlənir. Sen Martin adası həm Fransa, həm də Niderland tərəfindən müstəmləkə edilib və 1648-ci ildən bəri bu iki dövlət arasında bölünüb. Adanın Fransız hissəsi Saint-Martin, Niderland hissəsi isə Sint Maarten adlanır. Bu iki imperiya adanın idarəçilik, mədəniyyət və hüquq sistemlərini özlərindən asılı vəziyyətə salıb. Adada müstəmləkəçilik irsi iqtisadi və siyasi sahələrdə davamlı olaraq təsirini göstərir. Fransa və Niderlandın güclü təsiri, Sen Martin xalqının öz müqəddəratını təyin etmək cəhdlərinə maneə yaradır.

***N.BAYRAMLI***

# Vasitəçi olmaq üçün...

## Bayden administrasiyası tərəfsiz qala bilmədi

## Azərbaycan ikili görüşlərlə bütün problemlərin həllinə nail olur

2024-cü il Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması prinsipi üzrə aparılan danışıqlarda yeni bir mərhələ yaratdı. Artıq bir ildir ki, məsələ iki ölkə arasında vasitəçisiz görüşlər əsasında müzakirə olunur. Qeyd edək ki, Azərbaycanın öz suverenliyini bərpa etməsi, separatçı xunta rejiminin təslim və ləğv olması sülh prosesində mənzərəni bir az da aydınlatdı - məsələ beynəlxalq gündəlikdən düşdü və sadəcə olaraq, iki dövlətin arasında nizamlama prosesinə çevrildi. Hətta bu ikitərəfli görüşlər bir sıra nəticələrə də yol açdı - ötən ilin dekabrında iki ölkənin müvafiq strukturlarının birgə bəyanatı, delimitasiya və demarkasiya komissiyaları arasında keçirilən çoxsaylı görüşlər, nəhayət, bu ilin aprelin 19-da 4 kəndin azad edilməsi ilə bağlı razılığın əldə olunması, yayda iki ölkənin müvafiq strukturlarının delimitasiya və demarkasiya prosesi ilə bağlı Əsasnamə qəbul etməsi aparılan danışıqlarda mühüm bir məsafə qət edildiyini göstərir. Beləliklə, regionda sülhün əbədiliyinin təmini, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması və sərhədlərin müəyyənləşdirilməsi danışıqlar prosesinin əsasını təşkil etdi...

### Maltada görüş baş tutmadı...

Sirr deyil ki, Cənubi Qafqazda baş verən proseslər, xüsusilə danışıqlar prosesi bu və ya digər şəkildə beynəlxalq diqqət mərkəzindədir. Ayrı-ayrı dövlətlər, təşkilatlar danışıqlar prosesinin gələcək inkişafı ilə bağlı münasibətlərini sərgiləyir, ikitərəfli görüş üçün şəraitin yaradılmasını təklif edir, dəstəyini bildirir. Ortada isə bir reallıq var - məsələnin artıq vasitəçiyə ehtiyacı yoxdur. İndiki mərhələdə, bu, tamamilə yersiz görünür. O baxımdan ki, bütün tərəflər sülh sənədində yer alan müddəaların əksəriyyətinin razılaşdırıldığını bəyan edir. Bu mənada, qarşıdakı dövrlərdə hansısa xüsusi vasitəçilik təklifləri prosesin gedişinə əsaslı təsir göstərə bilməz.

Yeri gəlmişkən, KİV-ə Azərbaycan və Ermənistan XİN rəhbərlərinin Maltada ATƏT Xarici İşlər Nazirləri Şurasının 31-ci iclası çərçivəsində görüşü keçirilməməsinin bəzi detalları məlum olub. Belə ki, diplomatik mənbələrdən bildirilib ki, ABŞ Dövlət katibi Antoni Blinken ATƏT Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsi təşəbbüsü ilə çıxış edib. Blinken bu görüşün baş tutması üçün israrla vasitəçilik etmək istəyib. Məlumdur ki, ABŞ hazırda Azərbaycanla Ermənistan arasında sülh prosesində iştirak etmir. Blinken bu təşəbbüsü ilə ABŞ-ı yenidən sülh prosesinə daxil etmək niyyəti güdüb. Lakin Azərbaycan tərəfi Blinkenin görüşün keçirilməsi təklifindən qəti imtina edib. Səbəb isə budur ki, "ümumilikdə Bayden Administrasiyası Azərbaycanla bağlı ədalətsiz, qərəzli siyasət yürüdür". "Buna görə Azərbaycan ABŞ-ın, ümumiyyətlə, sülh gündəliyində iştirakını istəmir, bunu məqsədəuyğun saymır", - deyə diplomatik mənbə bildirib. Azərbaycan məhz ABŞ-nin vasitəçiliyindən imtina etdiyi üçün bu görüş baş tutmayıb.



### Bayden administrasiyasının "sülhpərvər" maskası...

Siyasi ömrünə cəmisi 2 ay qalmış Bayden administrasiyasının Cənubi Qafqaz yönəlik siyasətində tərəfsizlik nümayiş edilməyib - əksinə, bu komanda bütün mənalarda və hər zaman Ermənsitanın yanında yer almaqla yadda qaldı. Özünü "sülhpərvər" qiyafədə qələmə verən Vaşinqton prosesi fərqli addımları ilə bəzən yubatmağa, bəzən yeni "ştrixlərlə bəzəməyə", bəzən isə sözün əsl mənasında tormozlamağa çalışdı. Məsələn, ABŞ konqresi Azərbaycanın öz ərazilərini işğaldan azad etməsinə qarşı fərqli adlar və bəhanələr altında fəaliyyətlə yadda qaldı. Vaşinqtondan ölkəmizin qanunvericiliyini pozaraq cinayətdə ittiham olunan, separatizmi yaymaqda günahlandırılan və ədalət mühakiməsinə verilmiş bəzi cinayətkarların azad edilməsi ilə bağlı "çağırışlar" səslənməyə başladı, Zəngəzur dəhlizi məsələsindəki manipulyasiyalar açıq kontekst aldı. Ermənistanla ardarda hərbi təlimlər keçirildi və nəhayət, ABŞ-nin Ermənistanda hərbi varlığını təmin etmək üçün 5 aprel "razılaşması"na imza atıldı. Bütün bu faktoloji sübutlar isə Vaşinqtonun da "vasitəçilik" məsələsində qeyri-səmimi olduğunu göstərir - ABŞ bu kimi davranışlarla vasitəçilərin tərəfsizliyi prinsipinə xələl gətirmiş oldu.

**ABŞ konqresi Azərbaycanın öz ərazilərini işğaldan azad etməsinə qarşı fərqli adlar və bəhanələr altında fəaliyyətlə yadda qaldı. Vaşinqtondan ölkəmizin qanunvericiliyini pozaraq cinayətdə ittiham olunan, separatizmi yaymaqda günahlandırılan və ədalət mühakiməsinə verilmiş bəzi cinayətkarların azad edilməsi ilə bağlı "çağırışlar" səslənməyə başladı, Zəngəzur dəhlizi məsələsindəki manipulyasiyalar açıq kontekst aldı**

### İkitərəfli görüşlərin üstünlüyü...

Ötən dövr ərzində qət olunan əsaslı məsafə isə birbaşa təmasların nəticəsi kimi meydana çıxıb - may ayında Almatıda baş tutmuş ikitərəfli görüş, ikitərəfli komissiyaların hazırladığı Əsasnamə vasitəçisiz görüşlərin nəticələridir. Bu isə onu göstərir ki, problemlərin ən yaxın və ən effektiv həlli prosesi məhz ikitərəfli təmasların nəticəsində əldə olunur. Bəli, bu uğur Azərbaycanın yaratdığı mənzərədir - dövlətimiz hər zaman bu məsələni xüsusi olaraq vurğulayıb ki, aparılan danışıqlarda üçüncü tərəfə ehtiyac yoxdur. Hətta Prezident İlham Əliyev dəfələrlə öz çıxışlarında bildirib ki, Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası, sülh müqaviləsi, bir-birinin ərazi bütövlüyünün tanınması istiqamətində, ondan sonra iqtisadi əlaqələrin bərpası, nəqliyyat kommunikasiyalarının açılması, bütün bunlar gündəlikdə olan məsələlərdir və Azərbaycan tərəfində siyasi iradə var. Ermənistan tərəfində də olarsa, iki ölkə özləri heç bir vasitəçisiz bu məsələləri həll edə bilər və bölgədə uzunmüddətli sülh ola bilər. Beləliklə, irəli sürdüyü tezisin həqiqiliyi bütün çalarları ilə önə çıxır.

***P.İSMAYILOV***

# Qış turizmi: Soyuq qarın “qaynar” qiymətləri...

## Otellərin qiyməti niyə bahadır?

Azərbaycanda turizm sahəsində aktivlik əsasən yay aylarında müşahidə olunsa da, qış turizmini sevən insanların da sayı az deyil. Əsasən Yeni il ərəfəsində tətilə çıxanlar qış turizm komplekslərinə üz tuturlar. Təbii ki, fəslin iqlim normasına uyğun keçməsi də burada əsas faktorlardan biridir. Məsələn, havanın qarlı olacağı ilə bağlı proqnoz turistləri həftəsonu üçün bölgələrə üz tutmağa həvəsləndirir. Elə qiymətlərin də xüsusən bayram ərəfəsində və qarlı havalarda artdığının şahidi oluruq.

Yeni il bayramını Azərbayanda keçirmək istəyən vətəndaşlarımız daha çox müxtəlif bölgələrdəki otellərə üz tuturlar. Xüsusilə, istirahət mərkəzlərində Yeni il şənliklərinin keçirilməsi sadə vətəndaşın marağını cəlb edir. Çünki burada həm şou, həm dadlı təamlar var.

### Qiymətlər ən azı 150 manatdan başlayır...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə hazırlanmışdır**

Qeyd edək ki, ölkəmizdə qış turizmi üçün turistlər əsasən, Quba, Qusar, Qəbələ, Şamaxı, İsmayıllı, Şəki, Lerik, Lənkəran rayonlarına üz tuturlar. Bu rayonlarda yerləşən 3, 4 ulduzlu, həmçinin ulduz kateqoriyası olmayan kottec tipli hotellərdə qiymətlərin münasib olduğunu deyə bilmərik. Məsələn, iki nəfərlik standart otaqlar 150 manatdan başlayır, “Deluxe” otaq 200 manat, 4 nəfərlik VIP otaq isə 250 manat məbləğində təklif olunur. Uşaqlar üçün otağa əlavə çarpayı verilməsi isə 6 yaşa qədər pulsuz, 6 yaşdan yuxarılara 30-40 manatdır. Mehmanxananın birgünlük qiymətinə isə yalnız səhər yeməyi, qapalı hovuz (olduğu təqdirdə), sauna, SPA, bilyard, kinoteatr, fitnes zal kimi müxtəlif xidmətlər daxildir.

### Yeni il qabağı regionlardakı otellərin qiyməti

Yeni il qabağı regionlarımızda yerləşən otellərin qiymətləri ilə bağlı kiçik bir araşdırma apardıq. Ortaya maraqlı, bir o qədər də fantastik rəqəmlər çıxdı. Belə ki, 31 dekabr - 2 yanvar tarixlərində - 2 gecə, 3 gün ərzində 2 nəfərlik turların qiymətləri aşağıdakı kimidir:

“Shamakhi Palace”-1650 azn (gündə 3 dəfə qidalanma+Qala gecəsi)

“Qalaaltı Hotel spa”-1350 azn (gündə 3 dəfə qidalanma+Qala gecəsi)

“Qabala Riverside Hotel”-1556 azn (səhər yeməkləri +Qala gecəsi, Qala şam yeməyi)

“Qabala Tufandag Hotel”-1599 azn (səhər yeməkləri +Qala gecəsi, Qala şam yeməyi)

“Lankaran Springs Wellbeing Resort”-1379 azn (gündə 3 dəfə qidalanma+Qala gecəsi)

“Marxal Resort&Spa”-1240 azn (səhər yeməkləri + Qala gecəsi,Qala şam yeməyi)

“Shabran Wellbeing Resort”-1540 azn (səhər yeməkləri +Qala gecəsi, Qala şam yeməyi)

“Basqal Resort&Spa”-1520 azn (səhər yeməkləri +Qala gecəsi, Qala şam yeməyi)

“Quba Palace” -2600 azn (Səhər+ şam yeməkləri, Qala Gecəsi)

“Shahdag Pik Palace” - 4300 azn (30 dekabr-02 yanvar 3 gecə-4 gün) (səhər yeməkləri və Qala gecəsi daxil)



### İki günə bir aylıq qazancı götürürlər!

Bu günlərdə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü, millət vəkili Musa Quliyev də bildirib ki, günü 60-70 manata olan otelləri 700-800 manata təklif edirlər: “Bu gün ölkəmizdə turizmin inkişafına çox böyük ehtiyac var. Qarşıdan Yeni ilə gəlir, maraqlanıram, günü 60-70 manata olan otelləri 700-800 manata təklif edirlər. Nəyə görə? İki günə bir aylıq qazancını götürəcək. Bu, bir tərəfdən möhtəkirlik kimi qiymətləndirilə bilər. Digər tərəfdən, o sahibkar bilir ki, tələbat var. Amma o oteldən on dənə olsa, ömründə onu edə bilməyəcək. Biz bu işi elə qurmalıyıq ki, get, bir bölgədə “beş ulduz” otel tik, amma orada “üç ulduz” da, “dörd ulduz” da olmalıdır, ulduzsuz da.

Həmçinin aqroturizmi, kənd turizmini inkişaf etdirməliyik. Yay vaxtı müşahidə edirik, kənd evlərini hazırlayıb, bir-iki otağını turistə verir, oradan həm qazanc götürür, həm də yeni iş yeri əldə edirlər. Toyuq-cücəsi, yumurtası, mal-heyvanı var, məhsulunu, isti çörəyini təklif edir. Həm ailə üzvlərinin iş yeri olur, həm biznesini yaradır, həm də rəqabətli şəkildə turistin istirahətini təmin edir. Bu mənada, məşğulluq və turizm çox vacib sahələrdir və digər sektorlarla mütləq əlaqəli olmalıdır”.

### Regionlarda hotellərin sayı hələ də azdır

Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının (ATAA) İdarə Heyətinin sədri Göydəniz Qəhrəmanov “Yeni Azərbaycan”a açıqlamasında regionlarımızda otellərin sayının hələ də az olduğunu vurğulayıb. O, qeyd edib ki, hazırda tələb çox olsa da, təklif o qədər deyil. “Daha çox 4-5 ulduzlu otellər olduğu üçün bəzi vətəndaşlar büdcəsinə görə qiymətlərdən narazılıq edirlər. Buna görə də otellərin baha olması ilə bağlı şikayətlər gəlir. Səbəbi otellərin sayının az olması ilə bağlı rəqabət mühitinin formalaşmamasıdır. Elə regionlar var ki, orada cəmi bir otel var. Bu mehmanxananın da qiyməti hər büdcəyə uyğun olmur”.

### Qiymətlər o qədər də baha deyil...

G.Qəhrəmanovun sözlərinə görə, regionlarda 5 ulduzlu otellərin təklif etdiyi qiymət xarici ölkələrdəki eyni tipli otellərlə uyğundur, yəni o qədər də baha deyil: “Mehmanxanaların az olması bu problemləri ortaya qoyur. Arzu edirik ki, iş adamları yaxın gələcəkdə regionlarda otellərin tikilməsinə dəstək olsunlar. Rəqabət olanda qiymətlər tənzimlənir, təqdim olunan xidmətlərin də keyfiyyəti yüksək olur. Otellərin sayı mütləq şəkildə çoxalmalıdır. Bu, həmçinin regionlarımızın sosial-iqtisadi inkişafına mühüm töhfə olacaq”.

*Yeganə BAYRAMOVA*

# Həyat sığortası: özəl yığımlara doğru

## Qeyri-dövlət sektorunda əmək münasibətlərinin rəsmiləşdirilməsi sayəsində həyat sığortası bazarı üçün potensial müştəri yaranacaq

2025-ci ildən etibarən Azərbaycanda dövlət sektorunda çalışan şəxslərin həyatın yaşam sığortası dayandırılacaq. Gələn ildən həyat sığortası üzrə bazarda əsas yığım kateqoriyası özəl sektorun təmsilçilərinin üzərinə düşəcək. Xatırladaq ki, 2024-cü ilin yanvar-oktyabr aylarında Azərbaycanda 17 sığorta şirkətinin xətti ilə 1 milyard 112 milyon manat sığorta haqqı toplanılıb, onun təxminən 55 faizi həyat sığortası yığımlarıdır. Həyat sığortası növləri üzrə 610 milyon manat sığorta haqqı toplanıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 16,1 faiz çoxdur.

Həyatın yaşam sığortası müvafiq lisenziyaya malik sığorta şirkəti ilə işəgötürən arasında imzalanmış müqaviləyə əsasən nizamlanır. İstənilən müəssisə, təşkilat və idarədə çalışan şəxs bu sığorta məhsuluna qoşula bilər. Sığorta müqaviləsini bağlayan şəxs hər ay müəyyən edilmiş məbləği sığorta şirkətinin hesabına ödəyir və bununla da sabit aylıq ödənişlərə əsasən, həyatın sığortası portfeli formalaşır. Eləcə də işəgötürən təşkilat öz gəlirlərinin bir hissəsini bu sığorta fonduna yönəldir. Bu sığorta növü bir növ yığım fondu məzmunu daşıyır. Sığorta müqaviləsinə əsasən, sığorta olunan şəxsin sığorta müqaviləsində müəyyən edilmiş dövr ərzində ödədiyi sığorta məbləği tam şəkildə ona qaytarılır.

**Həyatın yaşam sığortası müvafiq lisenziyaya malik sığorta şirkəti ilə işəgötürən arasında imzalanmış müqaviləyə əsasən nizamlanır. İstənilən müəssisə, təşkilat və idarədə çalışan şəxs bu sığorta məhsuluna qoşula bilər. Sığorta müqaviləsini bağlayan şəxs hər ay müəyyən edilmiş məbləği sığorta şirkətinin hesabına ödəyir və bununla da sabit aylıq ödənişlərə əsasən, həyatın sığortası portfeli formalaşır**

**Varisə ötürülən sığorta kapitalı**

Belə bir təsəvvür yarana bilər ki, həyat sığortası vətəndaşın ölümündən sonra onun sığortası üçün nəzərdə tutulmuş kapitaldır. Bu, qətiyyən belə deyil, çünki bu kapital insanlar dünyasını dəyişdikdə yox, daha çox yaşadığı dövrdə ala bildiyi sığorta ödənişidir. Sığorta olunan şəxs çalışdığı müddətdə həyat sığortası üzrə sığorta təminatı (ödənişi) ala bilmirsə, onun sığorta kapitalı vəfat etdikdən sonra varisinə ödənilir. Bu sığorta növünün əsas xüsusiyyətlərindən biri işçinin çalışdığı sahədə peşə fəaliyyəti ilə bağlı sağlamlığını itirməsi, yaxud əmək xəsarəti almasına görə, sığorta ödənişinin verilməsindən ibarətdir. Buna görə də, sığorta anlayışında həyatın yaşam sığortası investisiya aləti hesab edilir. Müxtəlif ölkələrdə bu məhsullar müxtəlif cür modifikasiya edilir, insanlar müxtəlif bədən üzvlərini sığorta etdirərək sağlığında hansısa problemlər yarandıqda, məhz bu sığorta aləti ilə təminat alırlar.

Hazırda bu sığorta yığımları daha çox dövlət sektoruna aid müəssisə və təşkilatlarda nəzərə çarpır. Ona görə də, müasir çağırışlar sığorta siyasətində yeni trendlərinin tətbiqini zəruri edir və dünya təcrübəsində olduğu kimi həyatın klassik sığortasının ölkəmizdə də yayılması labüddür. Yeni sığorta yanaşmasına əsasən, qeyri-dövlət sektorunda çalışanların rəsmi əmək bazarına cəlb edilməsinin stimullaşdırması nəzərdə tutulur. Məlumdur ki, həyat sığortasıı müqaviləsinin bağlanması üçün ilk növbədə, əmək münasibətlərinin rəsmiləşdirilməsi, yəni əmək müqaviləsinin olması şərtdir. Əmək müqaviləsinin imzalanmadığı sahələrdə, hətta mülki müqavilələrlə tənzimlənən əmək bazarı iştirakçılarının geniş yer aldığı müxtəlif sektorlarda bu sığorta çeşidinə qoşulmaq mümkün deyil.

**Həyat sığortasında vergi və sosial güzəştlər**

Hazırda özəl sektorda yüz minlərlə şəxs bu sığortadan faydala bilir, çünki onların rəsmi əmək müqavilələri var. Ölkə üzrə muzdla çalışan işçilərin sayı 1,7 milyon nəfərdən çoxdur, onların 900 min nəfəri qeyri-dövlət sektorunu təmsil edir. Yəni rəsmi əmək münasibətləri ilə əhatə edilmiş işçilərin sayı özəl sektorda daha çoxdur. Bu amil də həyat sığortası portfelində özəl sektorun təmsilçilərinin payının az olmadığına işarə edir. Bunun da səbəbi həyat sığortasında özəl sektorun üzvləri üçün daha cəlbedici imkanların mövcudluğudur. Belə ki, özəl sektorda həyat sığortası ödənişlərində xüsusi vergi güzəştləri mövcuddur. Həyatın yığım sığortası müqaviləsi bağlayan işçilərdən gəlir vergisi və məcburi sosial sığorta üzrə ayırmaları tutulmur və həmin vergilərin yığımının xalis məbləği müştərinin həyat sığortası kapitalına toplanır. Bundan əlavə, işəgötürən şirkət həmin kapital hesabına əmək haqqı fondunun 15 faizi məbləğində məcburi sosial sığorta üzrə yığımları köçürür.



**Qeyri-leqal məşğulluğa qarşı mübarizə sığorta bazarını da canlandıracaq**

Ancaq bütün bunlara baxmayaraq, qeyri-dövlət sektorunda yüz minlərlə insan qeyri-leqal əmək bazarının iştirakçısı kimi qalmaqdadır. Nəzərə alsaq ki, ölkədə 5 milyon nəfərə yaxın iqtisadi fəal əhali var və onların böyük bir hissəsi əmək münasibətlərindən kənardadır. Yəni qeyri-leqal əmək bazarının iştirakçılarıdır, həmin şəxslərin mütləq əksəriyyəti isə özəl sektorun təmsilçiləridir. Ona görə də, həmin şəxslərin həyat sığortasına cəlb edilməsi də mümkün deyil. Hazırda qeyri-leqal məşğulluğa qarşı mübarizənin gücləndirildiyi və elektron əmək müqavilələrinin sayının artımının əldə edildiyi dövrdə yüz minlərlə işçinin vergi və icbari sosial sığorta bazarına cəlb edilmıəsi faktiki olaraq onların həm də həyat sığortası almaq statusunu da təmin etmiş ola bilər. Yürüdülən bu siyasət qeyd etdiyimiz özəl sektordakı şəxslərin rəsmi əmək bazarına cəlb edilməsi yolu ilə həyat sığortası təminatları almasına da nail olmaq məqsədi daşıyır.

Dövlət sektorunun həyat sığortası bazarından çıxışı ilkin mərhələdə çətinliklər yaratsa da, özəl sektorun aktiv fəaliyyəti və yenilikçi məhsulların tətbiqi ilə bu problemlər aradan qalxacaq. Qarşıdakı mərhələdə özəl sektordakı qeyri-əmək bazarının üzvlərinin əmək münasibətlərinin rəsmiləşdirilməsi sayəsində sığorta bazarına da kifayət qədər potensial müştəri cəlb olunacaq.

*E.CƏFƏRLİ*

# Yaxın Şərqin Suriya düyünü...

## Hökumət Suriyanın dörd böyük şəhərini itirmək üzrədir

## Türkiyə Prezidenti Milli Təhlükəsizlik Şurasını toplayıb

Yaxın Şərqin ən strateji nöqtələrindən sayılan Suriyada vəziyyət gərgin olmaqda davam edir. Hökumət qüvvələri ilə qiyamçılar arasında gedən döyüşlərlə bağlı bir sıra xəbərlər yayılıb. Türkiyə mətbuatının yaydığı məlumata görə, Suriyanın dördüncü ən böyük şəhəri olan Həma islamçı qiyamçı qrup HTŞ tərəfindən ələ keçirilib. Qeyd edək ki, bundan bir həftə öncə Suriyanın ikinci ən böyük şəhəri sayılan Hələb qiyamçılar tərəfindən tutulmuşdu. Həma Hələbdən sonra hökumət qüvvələrinin tərk etdiyi ikinci mühüm ərazi sayılır.

HTŞ-nin bununla bağlı yaydığı məlumatda bildirilib ki, Həma şəhərinin mərkəzi həbsxanasındakı məhbuslar azad ediliblər. Qeyd edək ki, Həma şəhəri Suriyanın mərkəzi bölgəsində yerləşir və həm hərbi, həm də siyasi baxımdan strateji mövqeyə malikdir. Şəhərin itirilməsi Əsəd rejiminin nəzarətində olan digər əraziləri, xüsusilə Dəməşqə doğru gedən yolları təhlükə altına qoyur. Şəhər Suriyanın qərbində, Orontes çayının sahilində, Dəməşqdən 213 km şimalda və Homsdan 46 km şimalda yerləşir. Həma Qubernatorluğunun əyalət mərkəzidir. 996 min əhalisi olan Həma Suriyanın Dəməşq, Hələb və Homs ilə birlikdə dörd ən böyük şəhərindən biridir.

### Salamiyyə döyüşsüz təsim oldu...

Bundan başqa, Suriya müxalifəti ilə yerli icmalar arasında əldə edilən razılığa əsasən, Salamiyyə şəhəri də heç bir döyüş baş vermədən “Hayat Təhrir əş-Şam” qruplaşmasının nəzarətinə keçib. Bildirilib ki, Salamiyyə şəhərindəki ismaili şiə icmasının liderləri ilə müxalifət arasında bununla bağlı razılıq əldə edilib. Razılaşmaya əsas səbəb şəhərin dini əhəmiyyətli bir məkan olması və orada müqəddəs məkanların yerləşməsidir. Həmçinin tərəflər arasında sülhün qorunmasının şəhər üçün əhəmiyyətli olduğu vurğulanıb. Bu, Suriya münaqişəsi tarixində nadir hallardan biri hesab olunur, çünki bu cür razılaşmalar adətən qızğın döyüşlər nəticəsində əldə edilir.

Suriya ordusunun yaydığı məlumatda isə bildirilir ki, “dinc əhalinin həyatını qorumaq və şəhərdə döyüşlərin önünü almaq üçün” mövqelər dəyişdirilib. Bu, mövqe dəyişikliyi isə prezident Bəşər Əsəd və onun müttəfiqləri üçün mühüm itki adlandırılır. Suriya ordusu Rusiya hərbi hava bazası yaxınlığındakı qiyamçıların önünü kəsmək üçün əks-hücuma başlayıb. Dövlət mediası bu xəbəri yayıb.



### Türkiyə Qatarda Astana formatını toplayır...

Türkiyə hökuməti Suriyada şiddətlənən vətəndaş müharibəsi ilə bağlı danışıqlar üçün dekabrın 7-də Qətərdə Rusiya və İran xarici işlər nazirləri ilə görüş keçiriləcəyini bəyan edib. Türkiyə mətbuatı xarici işlər nazirliyindəki mənbəyə əsaslanaraq yazıb ki, Türkiyə xarici işlər naziri Hakan Fidan Doha Forumu çərçivəsində Astana prosesi ilə bağlı Rusiya və İran nazirləri ilə görüşəcək.

ABŞ-nin Suriya üzrə xüsusi nümayəndəsi Ceyms Cefri CNN Türk-ə verdiyi xüsusi açıqlamada bildirib ki, Əsəd rejimi 10 ildir güzəştə getməkdən imtina edib: “Çox güclü üsyanla qarşı-qarşıyadır”.

ABŞ-nin YPG-yə verdiyi dəstəyə gəlincə, Cefri belə deyib: “Biz bu dəstəyi 2015-ci ildən veririk. Türkiyə bizim mövqeyimizi bilir. Suriyanın şimalında YPG ilə işləmək çətindir - PKK ilə əlaqələri var. Bizim Türkiyə ilə 2019-cu ildən o bölgə ilə bağlı “atəşkəs” adlana biləcək razılaşmamız var”

Cefri Trampın prezidentliyi dövründə ABŞ-nin Suriya siyasəti haqda hər hansı bir cavab verə bilməyəcəyini deyib: “Çox yaxşı sualdır, kaş cavab verə biləydim. Öz təcrübəmə əsaslanaraq deyə bilərəm ki, Tramp administrasiyası ilk dövründə Türkiyə və Suriya ilə birlikdə razılıq əldə edildi, Suriyadakı münaqişə donduruldu”.

### Ərdoğan Quterreş ilə danışdı...

Türkiyə prezdenti Rəcəb Tayyib Ərdoğan isə Milli Təhlükəsizlik Şurasının iclası əsnasında Birləşmiş Millətlər Təşkilatının baş katibi Antonio Quterreşlə telefonla danışıb. Telefon danışığının əsas mövzusu Suriyadakı hadisələr olub. Verilən açıqlmada bildirilib ki, telefon danışığı zamanı regional və qlobal məsələlər müzakirə olunub. Prezident Ərdoğan Türkiyənin arzusunun Suriyanın daha böyük qeyri-sabitlik yaşamaması və mülki insanların ölməməsi yönündə olduğunu dilə gətirib. Prezident Ərdoğan bəyan edib ki, hazırkı mərhələdə Suriya rejimi hərtərəfli siyasi həll üçün təcili olaraq öz xalqı ilə birgə müzakirələrə başlamalıdır. Dövlət başçısı Türkiyənin gərginliyi azaltmaq, mülki insanları qorumaq və prosesin siyasi həll yoluna istiqamətlənməsinə zəmin yaratmaq üçün səy göstərdiyini, bundan sonra da çalışacağını bildirib.

### MTŞ bəyanat yaydı...

Prezident Ərdoğanın sədrliyi ilə keçirilən Milli Təhlükəsizlik Şurasının iclasında 5 maddəlik bəyannamə qəbul edilib. Türkiyənin “Milliyyət” qəzetinin məlumatına görə, toplantıda ölkənin milli birliyinə, həmrəyliyinə və varlığına yönələn hər cür təhdid və təhlükəyə qarşı daxildə və xaricdə əzm, qətiyyət nümayiş etdirildiyi diqqətə çatdırılıb. Bəyannamədə Suriyada baş verən son hadisələrin mülki əhalinin həyat və əmlak təhlükəsizliyinə zərər vurmaması üçün lazımi tədbirlərin görülməsinin vacib olduğu bildirilib. Türkiyənin Suriyanın ərazi bütövlüyü və birliyinin qorunmasına hər zaman güclü dəstək verdiyi açıqlanıb.

*SADİQ*

# Xarici dil imtahanı zamanı...

## Nə, necə dəyişəcək?

Gələn ilin buraxılış imtahanlarında bir sıra dəyişikliklərin olacağı ilə bağlı fikirlər var. Ekspertlər bu dəyişikliklərin xarici dil fənninə aid olacağını iddia edirlər. Qeyd edək ki, ilin sonunda 2025-ci ildə keçiriləcək buraxılış imtahanlarının vaxtı açıqlanacaq.

### 11-ci siniflərdə dəyişiklik yoxdur

Dövlət İmtahan Mərkəzinin (DİM) şöbə müdiri Afiqə Batıyeva məsələ ilə bağlı açıqlama verib. O, 11-ci siniflərin buraxılış imtahanlarında xarici dil fənləri üzrə imtahan modelində heç bir dəyişiklik edilməyəcəyini bildirib: "Ötən il hansı model tətbiq olunubsa, yenə də həmin model tətbiq olunacaq".

### Yeniliklərdən biri

Şöbə müdirinin sözlərinə görə, 9-cu siniflərin buraxılış imtahanında oxuyub-anlama, tətbiqetmə bacarıqlarını yoxlamaq məqsədilə 4 mətn istifadə olunacaq: "Bu, yeniliklərdən biridir, burada 3 mətn kiçik olacaq ki, cəmi 1-2 cümlədən ibarətdir. Həmin mətnlərin hər biri üzrə bir qapalı suala cavab verməli tələb olunacaq. Bunlardan əlavə, bir qədər böyük mətn də var ki, o da oxuyub-anlama və tətbiqetmə bacarıqlarını yoxlamaq üçündür".



### Xarici dildə 26 sual olacaq

A.Batıyeva qeyd edib ki, xarici dil imtahanı üzrə 26 sual olacaq ki, sonuncusu şəkil təsviri ilə bağlı olacaq: "Burada məzmun etibarilə bir-birini tamamlaması tələb olunan 3 ardıcıl şəkil verilir. Həmin sualda da 35 sözdən ibarət qısa esse yazılması tələb edilir. Bunun qiymətləndirilməsi isə fərqlidir".

Maraqlıdır, ekspertlər qəbul imtahanlarına ediləcək yenilikləri necə dəyərləndirirlər?

### "Tam doğru və əsaslandırılmış addımdır"

Təhsil eksperti Elşən Qafarov mövzu ilə bağlı "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, "Təhsil haqqında" və "Ümumtəhsil haqqında" qanunlarda tam orta təhsilin əsas məqsədlərindən biri olaraq məzunların bir və ya bir neçə xarici dildə ünsiyyət qurmaq bacarığına malik olması göstərilir: "2024-cü ildən etibarən 9-cu siniflərdə, yəni ümumi orta təhsil səviyyəsində tətbiq edilən bu yenilik 2027-ci ildə tam orta təhsil səviyyəsində, yəni 11-ci sinif buraxılışlarında da tətbiq olunacaq. Hazırda ümumtəhsil məktəblərində tədris planı üzrə ən çox dərs saatı ayrılan fənlərdən biri xarici dildir. Qanunvericiliyə əsasən, ölkədə altı xarici dil tədris edilə bilər: ingilis dili, fransız dili, alman dili, rus dili, ərəb dili və fars dili. Bununla belə, ən çox tədris olunan xarici dil ingilis və rus dilləridir. Fransız, alman, ərəb və fars dilləri isə yalnız az sayda məktəbdə tədris olunur. Lakin təəssüf ki, ümumtəhsil məktəblərində şagirdlərin xarici dil bacarıqlarının inkişafı zəifdir. Bunun əsas səbəblərindən biri bir çox müəllimin yetərli ünsiyyət bacarıqlarına malik olmamasıdır. Müəllimlərin xarici dil üzrə qrammatik bilikləri ilə yanaşı, ünsiyyət bacarıqlarına da malik olması vacibdir. Tətbiq edilən yeniliklər məhz bu bacarıqların yoxlanmasını və təkmilləşdirilməsini hədəfləyir. Düzgün istiqamət seçilsə də, bu qərarın bir qədər gecikmiş olduğunu söyləmək mümkündür. Buna baxmayaraq, bu, tam doğru və əsaslandırılmış addımdır. Növbəti illərdə prosesin daha da sərtləşdirilməsi və tələblərin genişləndirilməsi vacibdir. Bu, xarici dil tədrisinin keyfiyyətini artırmaq baxımından əhəmiyyətlidir".

**Yeniliklər hər zaman müəyyən adaptasiya çətinlikləri yarada bilər. Şagirdlər və müəllimlər yeni modelə uyğunlaşmaq üçün əlavə vaxt və resurslara ehtiyac duyacaqlar**

### Yeniliklərin mənfi tərəfləri də var...

Təhsil eksperti Elçin Əfəndinin sözlərinə görə, DİM-in 2024-cü ilin buraxılış imtahanlarında tətbiq edəcəyi yeniliklər təhsil sisteminin keyfiyyətini artırmağa və şagirdlərin biliyini daha dəqiq qiymətləndirməyə yönəlib: "Bu yeniliklər xüsusilə 9-cu siniflərin buraxılış imtahanlarında özünü göstərir. Yeni imtahan modeli oxuyub-anlama və tətbiqetmə bacarıqlarını daha əhatəli şəkildə yoxlamağa imkan verəcək. Eyni zamanda, 11-ci siniflər üçün xarici dil üzrə imtahan modelində heç bir dəyişiklik edilməməsi sabitlik prinsipi ilə izah olunur. Lakin bu yeniliklərin həm müsbət, həm də mənfi tərəfləri var və onların hər biri ayrı-ayrılıqda nəzərdən keçirilməlidir.

DİM-in təqdim etdiyi məlumatlara əsasən, 9-cu siniflərin imtahanlarında tətbiq ediləcək yeni model şagirdlərin məntiqi düşüncə qabiliyyətini, analitik yanaşma bacarığını və mətni dərk etmə səviyyəsini ölçməyə yönəlib. Yeni modelə görə, şagirdlər 4 fərqli mətnlə qarşılaşacaq. Bu mətnlərdən 3-ü kiçik həcmli, cəmi 1-2 cümlədən ibarət olacaq. Hər bir kiçik mətnə əsasən bir qapalı sual təqdim ediləcək. Dördüncü mətn isə daha böyük həcmli olub, şagirdlərin oxuyub-anlama və məlumatı tətbiqetmə bacarıqlarını yoxlamağa xidmət edəcək. Belə bir yanaşma mətn əsaslı öyrənmənin əhəmiyyətini ön plana çəkir".

### Dəyişiklik adaptasiya çətinlikləri yarada bilər...

Ekspertin fikrincə, məsələnin müsbət tərəflərindən biri odur ki, bu dəyişikliklər tədris prosesində oxuyub-anlama və məzmunu tətbiqetmə bacarıqlarına diqqəti artıracaq: "Şagirdlər mətnlərdən yalnız məlumat almayacaq, həm də həmin məlumatı analiz etmək, tətbiq etmək və uyğun nəticələr çıxarmaq qabiliyyətlərini inkişaf etdirəcəklər. Təhsildə uzun müddət əsas problem kimi göstərilən mexaniki əzbərləməyə söykənən yanaşma bu cür imtahan modelləri ilə azalda bilər. Şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirmək və oxuyub-dərk etmə qabiliyyətlərini daha dəqiq ölçmək üçün bu yeniliklər mühüm addımdır. Məktəblərdə də müəllimlər bu istiqamətdə tədris metodlarını yeniləyə bilərlər.

Amma bəzi mənfi məqamlar da nəzərə alınmalıdır. Yeniliklər hər zaman müəyyən adaptasiya çətinlikləri yarada bilər. Şagirdlər və müəllimlər yeni modelə uyğunlaşmaq üçün əlavə vaxt və resurslara ehtiyac duyacaqlar. Dörd mətnli imtahan formatı şagirdlərin vaxtı səmərəli idarə etməsini tələb edir və bu, xüsusən vaxtla bağlı çətinliklər yaşayan şagirdlər üçün əlavə təzyiq yarada bilər. Kiçik mətnlər üzrə verilən sualların sayı məhdud olduğundan şagirdlərin əhatəli bilik səviyyəsini tam şəkildə əks etdirməyə bilər".

### Valideynlər tərəfindən birmənalı qarşılanmır...

E.Əfəndi hesab edir ki, imtahan modellərində dəyişikliklər valideynlər tərəfindən də birmənalı qarşılanmaya bilər: "Əgər yeniliklər barədə geniş izahat və maarifləndirmə işi aparılmasa, valideynlər bu modellərin faydalılığını tam anlamaya bilər və əlavə narahatlıq yarana bilər.

Ümumilikdə, 2024-cü ilin buraxılış imtahanlarında planlaşdırılan yeniliklər müasir təhsil tələblərinə cavab verir və şagirdlərin daha çox tətbiqetmə və analitik düşüncə bacarıqlarını ölçməyə yönəlib. Bu dəyişikliklər Azərbaycan təhsilinin qiymətləndirmə sisteminin təkmilləşdirilməsinə müsbət təsir göstərə bilər".

*Yeganə BAYRAMOVA*

# Ruhu üzünə çıxan dünya

## Moris Meterlinkin "Göy quş" nağıl-pyesi haqqında

Dünya ədəbiyyatının qızıl fonduna düşmüş elə əsərlər var, həm uşaq, həm böyük üçündür - Defonun "Robinzon Kruzo"su, Sviftin "Qulliver"i, Andersenin "Çılpaq kral"ı, Ekzüperinin "Balaca şahzadə"si kimi. Meterlinkin "Göy quş"u da bu qəbildəndir.

Adını çəkdiyim ilk üç əsər canında nağıl şirinliyi gəzdirməklə yanaşı sosial-siyasi mesajlar da verir. Ekzüperinin, Meterlinkin nağılları isə mistik xarakter daşıyır. Hərçənd "Göy quş"u da kasıb balalarının himni kimi qələmə verməyə cəhd göstərənlər olub, ancaq bu, fikrimcə, ədəbi-fəlsəfi baxımdan doğru yanaşma deyil.

***

Moris Meterlink uzun, barlı-bəhərli ömür yaşayıb - 1862-ci ilin yayında Belçikada imkanlı ailənin uşağı kimi doğulub, 1949-cu ilin yazında Fransada dünya şöhrətli dramaturq kimi dünyadan köçüb. Sənət karyerası uğurlu olub, əlli yaşına çatmamış - 1911-ci ildə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülüb. Yazdıqları, əlləxüsus da yaradıcılığının zirvəsi sayılan "Göy quş" nağıl-pyesi bütün mədəni ölkələrdə çap da olunub, səhnəyə də qoyulub.

Onun adı Avropa ədəbiyyatında simvolizmin aparıcı adlarından biri kimi çəkilir. Metodunun formalaşması baxımından dahi alman mistiki Novalisin ona güclü təsiri olduğu gizli deyil. Kimin kimə təkan verdiyini deyə bilmərəm, ancaq Meterlinkin fəlsəfi nağılıyla ondan vur-tut üç il qabaq dünyaya gəlmiş yəhudi əsilli dahi alman filosofu Edmund Hüsserlin fenomenologiya adlandırdığı fəlsəfi sistemi arasında da çox doğmalıq var. Kim bilir, bəlkə də onları zamanın ideoloji ab-havası, dövrün efirdə fırlanan, hər antennanın tuta bilmədiyi ideya dalğaları doğmalaşdırıb...

***

Meterlink dünya ədəbiyyatında əsasən əlli yaşına qədər yazdığı pyeslərinə - fəlsəfi pritçalarına görə tanınıb. Dediyimiz kimi, bunlardan ən məşhuru ilk dəfə 1908-ci ildə Moskva Bədaye teatrında məşhur rus rejissoru Konstantin Stanislavskinin tamaşaya qoyduğu "Göy quş" dramatik nağılıdır. Altı pərdədən ibarət pyesin uşaqlar üçün işlənmiş on fəsillik nəsr versiyası da var. Pyes ənənəvi səhnə əsərlərindən fərqlənir, burada əksəriyyəti epizodik rol almış yetmişə yaxın iştirakçı var. Əbəs yerə Meterlink Avropa sənət arenasında yeni dramın banilərindən sayılmır. Bu, elə bir əsərdir ki, onu uşaqlar nəinki oxuya bilərlər, hətta mütləq oxumalıdırlar, ancaq burada qoyulan mətləblərin mahiyyətinə varmaq, sirrinə yetmək üçün uşaq bir az böyüməlidir.

Hadisələrin mərkəzində kasıb odunçu ilə onun özü kimi zəhmətkeş arvadının evində böyüyən bir cüt bacı-qardaş durur. Oğlanın adı Tiltil, qızın adı Mitildir. Bir otaqda yatan uşaqlar milad gecəsi çal-çağır səsinə oyanıb pəncərənin qabağına qaçırlar. Qarşı küçədəki varlı evdə bayram şənliyi keçirilir. Uşaqlar o şənliyə həsədlə baxırlar.

Bu vaxt odunçu komasının qapısı döyülür, içəri qozbel, axsaq, təkgöz, qarmaqburun bir qarı girir. Bacı-qardaşın qonşulardan birinə bənzətdiyi qarını uşaqlar qarşılayırlar, çünki yorğun ata-ana gecənin bu vədəsində ağır iş günündən sonra şirin yuxuya dalıb. Qarı deyir ki, nəvəsi ağır xəstədir, onun dərdinə yalnız Göy Quş çarə qıla bilər. Buna görə də bacı-qardaşı həmin sirli, möcüzəli quşun sorağına göndərmək istəyir.

Zahirən çox eybəcər görünən bu qarı əslində bir gözəl pəridir. Uşaqların hər şeyi yanlış, təhrif olunmuş şəkildə görməsi onu pəjmürdə eləyir. Qarı Tiltilə bir yaşıl papaq bağışlayır, papağın alnına bərkidilmiş almazın işığında aləm ona ayrı donda görünəcək.

***

Gerçəkdən də, Tiltil papağı başına qoyub almazı azca buranda dünya onun da, bacısının da gözündə tam dəyişir. Onlar Novalisin arzusunda olduğu ideal aləmə - mistik cənnətə düşürlər, canlı-cansız sayılan bütün əşyaların ruhunu görür, onlarla təmasa girirlər.

Sehirli almaz üçüncü göz, altıncı hiss orqanı adlandırılan bir fenomenin rəmzidir. Ona yiyələnəndən sonra Hüsserlin fenomenoloji reduksiya, intensionallıq dediyi metodlar işə düşür, insan şeylərin, hadisələrin mahiyyətinə nüfuz eləyən bir baxışla silahlanır, varlığın ruhuna dalır, mahiyyətin üstünü örtən, onu adi gözdən gizlədən cəhətləri, əşyaların real statusunu mötərizə arasına alır. Bu cür baxmaq qabiliyyətinə, belə gözə yiyələnməyən o gizli dünyanı, sirli aləmi də görməz.

Almazın kəraməti sayəsində hər kəsin, hər nəsnənin ruhu üzünə çıxır, eybəcər cadugər qarı gözəl bir şahzadəyə, kasıb koma işıqlı cənnət hücrəsinə, cansız əşyalar canlı varlıqlara cevrilir. Saatın, odun, suyun, çörəyin, südün, şəkərin, itin, pişiyin ruhu dil açır, insan ətraf aləmlə, təbiətlə mistik ünsiyyətə girir. Köpək sevincək olub "mənim balaca tanrım" deyə Tiltilin başına dolanır.

Pəri bütün dəstəyə Göy Quşun axtarışında uşaqlara yardım göstərməyi, axıracan onların yanında olmağı tapşırır. Ancaq bu tapşırıqdan heç də hamı razı deyil, Pişiyin başçılığıyla narazılar uşaqlara qarşı sui-qəsd hazırlamağa çalışırlar. Onların fikrincə, insana qədər bu dünyada hamı azad, şad-xürrəm gün keçirib, sehirli Göy Quşu tutandan sonra bəniadəmin despotizmi görünməmiş miqyas alacaq, insan əşyaların da, heyvanların da, hadisələrin də ruhuna yiyələnəcək, dilini biləcək, daha onun asılılığından qurtulmaq olmayacaq. Köpək qəzəblə qiyamçılara qarşı çıxır, onun fikrincə, insan bütün varlıqlardan üstün varlıqdır, məxluqatın əşrəfi, təbiətin hamisidir, onun qulluğunda durmaq bütün yaranmışlar üçün şərəfdir.

Doğrudan da, təbiət özünü insanın gözüylə görməsə, tanımaz. Mineralların, bitkilərin, heyvanların ruhu özbaşına özünü dərk eləyən, özünü ifadə eləyən fəal ruh deyil, onu passiv vəziyyətdən aktiv hala gətirən insanın müdaxiləsidir. Təbiətdəki azadlıq yalançı, göstərmə azadlıqdır, düzünə qalsa, təbiətdə heç bir azadlıq yoxdur, ola da bilməz. Heyvanlar, quşlar, ağaclar, daşlar yalnız azad insan ruhunun çağırışıyla öz gövdələrini, təbiətlərini aşıb həqiqi azadlığa, qurtuluşa çata bilərlər...

Pəri, uşaqlar, bir də İşığın Ruhu - İşıq Cövhəri səhnəyə çıxanda xəyanət ortaqları sükuta dalırlar.

***

Tiltillə Mitil ilk növbədə Xatirələr Ölkəsini ziyarət eləməlidir, çünki orada onların babasıyla nənəsi yaşayır. Orada onlar ölmüş bacı-qardaşlarını da görürlər. Bəlli olur ki, ölənlərin yuxulu ruhu dirilər onları yada salanda ayılır. Keçmiş günlərin xatirəsinə nənə-babalarıyla birgə nahar eləyəndən sonra uşaqlar İşıq Cövhərinin görüşünə tələsirlər.

Nəvələrin xahişiylə baba onların gözünə göy rəngdə görsənən qaratoyuğu xoşbəxtlik quşunun sorağına çıxmış uşaqlara bağışlayır. Xatirələr ölkəsini geridə qoyanda onlar baxırlar ki, babanın verdiyi quşun rəngi qapqaradır.

Uzaqdan Gecənin qəsri görünür. Gecə bu quşqonmaz qalada təbiətin sirlərini insandan qoruyub saxlayır. Xain Pişik özünü qəsrə hamıdan qabaq çatdırıb, onu gözləyən təhlükədən Gecəni xəbərdar eləyir. Ancaq ülyahəzrət Gecə qoruduğu sirr xəzinəsinin qapılarını insanın üzünə bağlamaq iqtidarında deyil. Köpəyin, Çörəyin, bir də Şəkərin müşayiətiylə uşaqlar qəsrə girirlər. Əvvəl-əvvəl Gecə onları yanıldıb azdırmağa, bu da alınmayanda qorxutmağa, saraydakı otaqların açarlarını onlardan gizləməyə çalışır. Tiltil bütün qapılara açar salıb otaqları bir-bir gözdən keçirir: bir otaqda kabuslar, o birində xəstəliklər, üçüncüdə müharibələr... Kabuslar havalanıb, xəstəliklər xəstə düşüb, müharibələr qapını qırıb azadlığa çıxa bilmir.

Nəhayət, otaqların birində uşaqları Gecənin qoruduğu yanar ulduzlar, sevimli qoxular, şeh, bülbül nəğməsi qarşılayır. Buradan başqa aləmə açılan qapıdan keçəndə uşaqlar ay işığına bələnmiş ecazkar bağa düşürlər, bağda sehirli göy quşlar ulduzların, planetlərin arasıyla aramsız uçuşurlar. Tiltil yoldaşlarını haraylayır, hərə bir neçə quş tutub bağdan çıxır. Ancaq quşlar bağdan kənarda sağ qalmır, onlar gecənin sahilində elə gəlməyən qanadlı xəyallardır.

***

Sonrakı səhnə meşədə vaqe olur. Pişik ağaclara dil töküb onları bacı-qardaşın əleyhinə qaldırmağa çalışır. Əlbəttə, ağaclar hamısı odunçudan yanıqlıdır, nə qədər qohum-qərəbaları, doğmaları bu uşaqların atasından - əlibaltalı cəlladdan ziyan çəkib. Hələ özlərinə balta dəyməyibsə də, doğranmaq təhlükəsi hər vaxt başlarının üstündədir.

Ağaclar insana qarşı qiyama qalxır, təbiət bəni-adəmin onun daxili işlərinə qarışmasına sərt müqavimət göstərir. İçində yaşadığı cəmi məxluqatla birgə meşə insan övladına edam hökmü kəsir: donuzlar körpə Mitili necə ləzzətlə yeyəcəklərini xəyallarına gətirib adam ətinə yerikləyirlər, buynuzlu qoçlar kəsilmiş qohumlarının qisasını almağa hazırlaşırlar. Yalnız İşıq Cövhərinin müdaxiləsi, bir də Tiltilin alnındakı almazı işə salması qana susamış meşə əhlini - vəhşi heyvanları, ağacları sükut, zülmət səltənətinə qaytarır. Avropa xalqlarının folklorunda İblisin məyyətində sayılan Pişik ("Master və Marqarita"nı xatırlayaq) yenə xəyanətin altından təmiz çıxır.

Göy Quşu uşaqlar məzarlıqda da axtarırlar. Sehirli almazın qüdrətiylə qəbirlər çat verir, o çatlardan ağ çiçəklər boy göstərir. Quşlar Günəşin, Həyatın şəninə himn oxuyurlar. "Bəs ölülər haradadır? - bacı-qardaş bir-birindən soruşur. - Məzarlıqda ölü yoxdur". Bununla müəllif, əlbəttə, çürümüş cəsədlərin torpağa qarışıb itməsinə deyil də, ölümün yoxluğuna işarə vurur. Ruhlar aləmində, əbədi dünyada ölüm nə iş görəcək?..



**F.Uğurlu**

davamı növbəti sayımızda

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Şənbə üçün NƏZM



Tək bayraq dalğalanır,
Dayanıbdır yüksəkdə.
Təkbaşına dolanır
Ətrafında külək də.

Zirvənin bəzəyidir
Bu bayrağın üç rəngi.
Möhtəşəmlik rəmzidir
Bu qürurlu ahəngi.

Yaşılında dirilik,
Qırmızısında qan var.
Göyündə göylər qədər
Böyük bir asiman var.

O, böyük bir millətin
Azadlıq nəfəsidir.
Sancıldığı hər zirvə,
Öz xalqının səsidir.

Baş qoyub, and içməyə,
O, Qurana tən gəlir.
Tək bayrağın ardınca,
Bu Ana Vətən gəlir.



***

Mən xəstə adamam, ozan,
Gəl aldatma, doğrunu çal.
Simləri çək, aha köklə,
Al qopuzu, ağrını çal.

Görürsən, Haray quşuyam,
Bir ağacda budağım var.
Üz tutmuşam göyə sarı,
Yer altında otağım var.



Sən çal ki, bir də oxuyum,
Səsim də başıma düşsün.
Bütün ömrümün avazı,
Sinəmin daşına düşsün.

Çal, elə yandır ki, məni,
Közə düşüm, külə dönüm.
Bir daşı da dilləndirim,
Gözəl bir şəkilə dönüm.

Azan deyim, səsim uçsun,
Bu yerdən ötənə gedim.
Son nəfəsi ala bilib,
Sağ olan Vətənə gedim.



Mən xəstə adamam, ozan,
Bu çatlayan bağrımı çal.
Simləri çək, aha köklə,
Al qopuzu, ağrımı çal.

***

Bir az gecə düşür günün üzünə,
Bir az günəş qonur pəncərəmizə.
Bir az dirilən var, bir az da ölən,
Bir az duman çökür gözlərimizə.

Bir az külələri yola salırıq,
Bir az yağış yağır qərib nəfəsdə.
Bir az özümüzə səsimiz çatır,
Bir az quruyan var ayağı üstə.



Bir az quşlar belə nəğmə oxuyur,
Bir az bacalarda tüstü yorulur.
Bir az qapıların zəngi çalınır,
Bir az ömrümüzə oyun qurulur.

Bir az dünyamız da yazıya gəlir,
Bir az gəzən olur səhifəmizdə.
Bir az ruhumuzu köçürmək üçün,
Bir az düyün düşür əllərimiz də...

***

Çox şey istəmirik ki...
Bir az əmin-amanlıq...
Adamlardan adamlıq...
Diriləcək insanlıq...
Çox şey istəmirik ki...

Çox şey istəmirik ki...
Göz görəsi uzaqlıq...
Əllər çatan yasaqlıq...
Bir azca da azadlıq...
Çox şey istəmirik ki...

Çox şey istəmirik ki...
Sığal çəkən havalar...
Rahat olan yuvalar...
Bitə bilən davalar...
Çox şey istəmirik ki...

Çox şey istəmirik ki...
Ürəyimizə təpər...
Kədərimizə çəpər...
Açıla bilən səhər...
Çox şey istəmirik ki...

Çox şey istəmirik ki...
Yaşamaq üçün həvəs...
Dolanmaq üçün nəfəs...
Səslərə səs verən səs...
Çox şey istəmirik ki...

Çox şey istəmirik ki...
Ölümü dayandırmaq...
Haqsızlığı yandırmaq...
Ruhları oyandırmaq...
Çox şey istəmirik ki...

***

Bu ayın bu günündə açan səhər üşüyür,
Suyun içində batan bizim şəhər üşüyür.

Ağaclar torpaq üstə, damcılar yarpaq üstə,
Kəlmələr dodaq üstə, qərib əllər üşüyür.

Göyün üstündə duman, həyat gözündə güman,
Vaxtın üzündə zaman, qaçan sellər üşüyür.

Yalan içində gerçək, sözünü udan külək,
Hardasa bir kəpənək qonan güllər üşüyür.

Varlığa qəliblənən, sevgiyə ümidlənən,
Adına kilidlənən yetim dillər üşüyür.

Bu soyuq havalarda, hamıdan uzaqlarda,
Titrəyən yuvalarda ötən illər üşüyür.

**Xanım İsmayılqızı**

# Səma şahinləri...

## Beynəlxalq Mülki Aviasiya Günüdür

18-ci əsrin sonları-19-cu əsrin əvvəllərində rus, fransız, alman və Amerika mühəndisləri ilk uçan aparatların - “qanadlı əjdahalar” adlandırılan təyyarələrin müxtəlif modellərini hazırlayırlar. Bununla da bəşəriyyətin tarixində təyyarə erası başladı. Bu gün dünyada Beynəlxalq Mülki Aviasiya günü kimi qeyd olunur. Əlamətdar gün 6 dekabr 1996-cı ildə BMT Baş Assambleyası tərəfindən elan olunub.

Mülki Aviasiya Gününün bayram edilməsində məqsəd geniş ictimaiyyəti üzv dövlətlərin sosial və iqtisadi inkişafına mülki aviasiyanın töhfəsini artırmaq idi. Digər məqsəd BMT-nin xüsusi strukturu olan Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) bəşəriyyətə xidmət edən yüksəksürətli qlobal nəqliyyat şəbəkəsinin yaradılması üzrə səylərin birləşdirilməsi sahəsində unikal rolu haqda məlumatlandırılmasından ibarətdir.

### İCAO-nun vəzifələri müxtəlif aspektlidir...

Beynəlxalq Mülki Aviasiya Təşkilatı Assambleyası mülki aviasiyada beynəlxalq normaları müəyyən edir, təhlükəsizliyin və səmərəliliyin artırılması məqsədilə onun inkişafını əlaqələndirir. İCAO-nun vəzifələri sırasına təkcə bütün dünyada beynəlxalq mülki aviasiyanın təhlükəsizliyinin təmin olunması və qaydalı inkişafı deyil, həmçinin təşkilatın müxtəlif aspektləri və mülki aviasiya sahəsində bütün məsələlər, o cümlədən yükdaşımaları üzrə beynəlxalq əməkdaşlığın əlaqələndirilməsi daxildir. İCAO-nun qaydalarına uyğun olaraq, beynəlxalq hava məkanı uçuş informasiyası rayonlarına - naviqasiya vasitələrini və hava hərəkətinə nəzarət imkanlarını nəzərə almaqla sərhədləri müəyyən olunan hava məkanlarına bölünüb. İCAO-nun funksiyalarından biri də dünya aeroportlarına aeronaviqasiya və meteorologiya məlumatlarının, uçuş planlarının və s. çatdırılması üçün dördhərfli fərdi şifrlərin - identifikatorların verilməsidir. Hazırda bu təşkilat 192 üzv-dövləti birləşdirir.



### 86 yaşlı mülki aviasiyamız

Mülki aviasiyamızın təməli yaxın keçmişimizlə bağlı deyil. Bu yolda bir əsrdən artıq tarixi mərhələ var. Azərbaycan 1992-ci ilin noyabrın 8-də İCAO-ya daxil olub.

Bu il Azərbaycan mülki aviasiyası 86 illik yubileyini qeyd etdi. Ölkəmizdə bu sahənin əsası 1938-ci il iyunun 2-də - ilk mülki aviasiya dəstəsinin yaradılması ilə qoyulub. Məhz bu tarix Prezident İlham Əliyevin 18 may 2006-cı il Sərəncamı ilə iyunun 2-sinin Azərbaycanda Mülki Aviasiya Günü elan olunmasının əsasını təşkil edib.

Dövlət Mülki Aviasiya Agentliyi Azərbaycanda mülki aviasiya sahəsində nəzarəti, dövlət siyasətini həyata keçirən və tənzimləyən mərkəzi icra orqanıdır. O, mülki aviasiya sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak edir. Bu siyasətin həyata keçirilməsini təmin edir, həmçinin mülki hava gəmilərinin təhlükəsiz uçuşu, aviasiya təhlükəsizliyi və ətraf mühitin qorunmasına nəzarəti təmin edir. Agentlik, öz səlahiyyətləri çərçivəsində normativ tənzimləməni, mülki aviasiya sahəsində dövlət nəzarətini həyata keçirir, beynəlxalq mülki aviasiya təşkilatları ilə əməkdaşlıq edir, onların işində iştirak edir. Agentlik həmçinin xarici ölkələrin aviasiya administrasiyaları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

### Dünyada 8 aeroportdan biri...

Bundan başqa, Dövlət Mülki Aviasiya Agentliyi mülki hava gəmilərinin uçuşa yararlılığının təmin edilməsi üzrə vahid dövlət siyasətini, aviasiya texnikası və avadanlığı da daxil olmaqla bütün mülki aviasiya subyektlərinin milli və beynəlxalq tələblərə uyğun olaraq icbari sertifikatlaşdırılmasını həyata keçirir. Agentlik hava məkanından istifadəni tənzimləyən qaydaların, hava məkanında mülki hava gəmilərinin uçuş qaydalarının və digər normativ hüquqi aktların hazırlanmasında iştirak edir.

Heydər Əliyev Beynəlxalq Aeroportu postsovet məkanında ən yaxşı aeroport elan edilib, aeroport sənayesi üçün ən nüfuzlu hesab olunan “Skytrax World Airport” mükafatlarına layiq görülüb. “Skytrax” konsaltinq şirkəti Heydər Əliyev Beynəlxalq Aeroportunu ən yüksək “5 ulduz”la təltif edib. İndiyədək dünyada bu cür qiymətə cəmi 8 aeroport layiq görülüb.

***Yeganə BAYRAMOVA***



# Azərbaycanın olimpiya mükafatçısı 2024-cü ili reytinqdə ikinci pillədə başa vurub

Fransanın paytaxtı Parisdə keçirilmiş Yay Olimpiya Oyunlarında gümüş medal əldə edən Azərbaycan taekvondoçusu Qaşım Maqomedov dünya reytinqində 2024-cü ili ikinci pillədə başa vurub.

“Report” xəbər verir ki, bu, Dünya Taekvondo-sunun (World Taekwondo) rəsmi saytında dekabr ayı üçün açıqladığı reytinqdə əksini tapıb.

58 kq çəki dərəcəsində yer alan idmançının mövqeyində dəyişiklik olmayıb. O, 120 xalla ikinci sırada yer alıb.

Q.Maqomedovun Paris-2024-ün finalında məğlub olduğu Cənubi Koreya təmsilçisi Park Taejoon (200 xal) ilk sıradadır.



Qeyd edək ki, Qaşım Maqomedov qızıl medal uğrunda görüşdə zədələndiyi üçün döyüş vaxtından əvvəl başa çatmışdı.

# MMA döyüşçüsü: “Kəməri əldə edəcəyimə inanıram”

Kəməri əldə edəcəyimə inanıram.

Bunu “Report”a açıqlamasında Azərbaycanın MMA döyüşçüsü Vüqar Kərəmov deyib.

O, “Rizin” Döyüş Federasiyasındakı növbəti qarşılaşması haqqında danışıb.

V.Kərəmov “Rizin 49” turnirində braziliyalı rəqibi Roberto Satoşi Souza ilə duelinin önəmli olduğunu söyləyib:

“Bu, kəmər uğrunda görüş olacaq. Kəməri də əldə edəcəyimə inanıram. Özümə inanmadığım gün idmanla vidalaşacağam. İnşallah, kəmər bizim olacaq”.



MMA döyüşçüsü rəqibini yaxşı tanıdığını bildirib:

“Onun qarşılaşmalarını daha əvvəl də izləmişəm. Daha çox parterdə mübarizə aparmağa üstünlük verir. Düşünürəm ki, bu görüşdə buna imkan verməməli və ayaqüstə döyüşməliyəm”.

Qeyd edək ki, 71 kq çəki dərəcəsindəki döyüş dekabrın 31-də Yaponiyadakı “Saitama Super Arena”da təşkil ediləcək.

# Misli Premyer Liqası: Mərkəzi oyun FIFA referisinə tapşırılıb

Futbol üzrə Misli Premyer Liqasında XVI turun hakim təyinatları açıqlanıb.

AZƏRTAC xəbər verir ki, “Səbail” və “Araz-Naxçıvan” klubları arasında keçiriləcək açılış matçı Rəşad Əhmədova tapşırılıb.

Turun mərkəzi qarşılaşması olan “Sabah” - “Qarabağ” görüşünü isə FIFA referisi Elçin Məsiyev idarə edəcək.

Misli Premyer Liqası

**XVI tur**

**7 dekabr**

**15:00. “Səbail” - “Araz-Naxçıvan”**

Hakimlər: Rəşad Əhmədov, Rahil Ramazanov, Müslüm Əliyev, Elvin Bayramov
VAR: Rəvan Həmzəzadə
AVAR: İnqilab Məmmədov
Hakim-inspektor: Orxan Məmmədov
AFFA nümayəndəsi: Erkin Hüseynov
**“ASCO Arena”**

**18:00. “Sabah” - “Qarabağ”**

Hakimlər: Elçin Məsiyev, Elşad Abdullayev, Pərvin Talıbov, Əkbər Əhmədov
VAR: Əliyar Ağayev
AVAR: Zeynal Zeynalov
Hakim-inspektor: Ömər Paşayev
AFFA nümayəndəsi: Elçin Məmmədov
“Bank Respublika Arena”

**8 dekabr**

**16:00. “Kəpəz” - “Zirə”**

Hakimlər: Tural Qurbanov, Zöhrab Abbasov, Teymur Teymurov, Əli Əliyev
VAR: Rəşad Əhmədov
AVAR: Eyyub İbrahimov
Hakim-inspektor: Anar Salmanov
AFFA nümayəndəsi: Kifayət Mustafayeva
**Tovuz şəhər stadionu**



**18:00. “Sumqayıt” -”Neftçi”**

Hakimlər: Fərid Hacıyev, Rəhman İmami, Kamran Bayramov, Cavid Cəlilov
VAR: İnqilab Məmmədov
AVAR: Namiq Hüseynov
Hakim-inspektor: Rəhim Həsənov
AFFA nümayəndəsi: Elgiz Abbasov
Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionu

**9 dekabr (bazar ertəsi)**

**19:00. “Turan Tovuz”- “Şamaxı”**

Hakimlər: Kamal Umudlu, Vüsal Məmmədov, Asiman Əzizli, Rauf Allahverdiyev
VAR: Nicat İsmayıllı
AVAR: Şirmamed Mamedov
Hakim-inspektor: Babək Quliyev
AFFA nümayəndəsi: Asif Əliyev
Tovuz şəhər stadionu.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4800
Sifariş: 2819
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli